QARABAĞ AZƏRBAYCANDIR!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 232 (6196) 25 dekabr 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## İlham Əliyev: “Biz Ermənistan faşist dövlətinin, terror dövlətinin belini qırdıq!”

*“Əgər o tərəfdən buraya bir güllə atılsa, - 5 kilometrdir buradan Ermənistan sərhədinə, - onları elə günə salarıq ki, ümumiyyətlə, öz adlarını unudarlar”*



Bax 2

### Elman Rüstəmov devalvasiyadan danışdı




### “Prezidentimizin uğurlu siyasəti sayəsində xalqımızı daha gözəl, firəvan günlər gözləyir”



*“Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü, prinsipial, milli maraqlara əsaslanan siyasət nəticəsində ölkəmiz güclü, dinamik inkişaf edən, yüksək beynəlxalq nüfuza malik dövlətə çevrilib. Əsası Ümummilli Liderimiz, böyük dövlət xadimi Heydər Əliyev...*

Bax 7



### Ermənistanda xaos davam edir



### Dmitri Savelyev: “Prezident İlham Əliyevin diplomatik istedadı Azərbaycanın dünyada nüfuzunun ciddi şəkildə artmasına imkan verdi”

Bax 7

### Mutasiyaya uğramış virus təhlükəlidir?



### Erməni terrorunun qısa tarixi: faşizm və genosid siyasətinin nəticələri




Bax 15

### Leonid Kalaşnikov: “Prezident İlham Əliyev Azərbaycanın əsas problemini həll etdi”



Bax 7

### Ronaldo Milad tətilini Dubayda keçirəcək



Bax 16

# İlham Əliyev: "Biz Ermənistan faşist dövlətinin, terror dövlətinin belini qırdıq!"

*"Əgər o tərəfdən buraya bir güllə atılsa, - 5 kilometrdir buradan Ermənistan sərhədinə, - onları elə günə salarıq ki, ümumiyyətlə, öz adlarını unudarlar"*

***"Xəbər verdiyimiz kimi, dekabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Qubadlı və Zəngilan rayonlarında olublar. AZƏRTAC xəbər verir ki, Qubadlıya gedən yolda avtomobili özü idarə edən Prezident İlham Əliyev dedi:***

-Cəbrayıl rayonunun ərazisindəyik. Azad edilmiş torpaqlardayıq. Sağ tərəfdə ermənilər tərəfindən dağıdılmış kəndlərimizdir. Gedirik Qubadlı rayonuna.

Dağıdılmış üzüm bağları. Bütün kəndlər dağıdılıb. Yolun sol və sağ tərəflərində olan dirəklər torpaqlar işğaldan azad olunandan sonra qısa müddət ərzində qoyulmuşdur. Bütün kəndlər dağıdılıb. Düşmən bu cinayətlərə görə cavab verəcək. Bütün kəndlərimiz, tarixi abidələrimiz, dini abidələrimiz düşmən tərəfindən dağıdılıb. Bütün dünya bunu görməlidir. Sovet vaxtından qalan abidə. İkinci Dünya müharibəsinə həsr edilmiş abidədir. Onu da dağıdıblar.

Növbəti dağıdılmış kənd.

Birinci xanım Mehriban Əliyeva: Kəndin adı nədir?

Prezident İlham Əliyev: Göyərçin Veysəlli kəndi. Erməni faşistlər tərəfindən dağıdılıb. Heç İkinci Dünya müharibəsi zamanı faşistlər belə vəhşilik törətməyib. Görün, biz hansı vəhşi düşmənlə üz-üzə idik, biz hansı şər qüvvələri məğlub etdik?! Bölgəmizi, Qafqazı faşistlərdən azad etdik. Bütün bu kəndləri bərpa edəcəyik. Ancaq, ilk növbədə, bütün kəndlər, o dağıntılar sənədləşdiriləcək, uçota alınacaq.



**Əfsuslar olsun, biz bunu bu günə qədər eşidirik ki, bəzi müsəlman ölkələri Ermənistana dost ölkə deyirlər. Bu "dost ölkəyə" 20 il rəhbərlik etmiş cəlladlar bunu dağıdıblar. Onlar gəlib dağıdıblar bizim məscidimizi, təhqir ediblər"**



Zəngilan rayonunun ərazisindən keçirik. Babaylı kəndi. Bu da dağıdılıb.

Bir dənə də salamat bina yoxdur. Baxın, bütün binalar dağıdılıb. Köhnə qəbiristanlıq.

Zəngilan rayonunun gözəl mənzərəsi, səfalı məkan. Hamısını bərpa edəcəyik. Bu da Üçüncü Ağalı kəndi. Görünür burada ermənilər yaşayıblar. Amma görün nə gündə yaşayıblar. Mən deyəndə ki, işğal edilmiş torpaqlarda ermənilər səfalət içində yaşayırlar, bax, budur bunun sübutu. Bizim kəndimizə gəliblər, kəndimizin böyük hissəsini dağıdıblar.

Ermənilərin zəbt etdikləri evlərimiz. İndi Üçüncü Ağalı kəndinin sakinləri yəqin ki, tanıyar bu ev kimindir. Gələsən, başqasının torpağını zəbt edəsən, insanları evsiz-eşiksiz qoyasan, onların evində yaşayasan, xarabalığa çevirəsən, sonra da deyəsən ki, bu, qədim erməni torpağıdır. Saxtakarlar, oğrular, yalançılar, vəhşilər bizim torpaqlarımızı 30 ilə yaxın müddət ərzində işğal altında saxlayıblar. Bütün bu videosənədlər hüquqi müstəvidə bizim təzminat davamız üçün əsayi-dəlil olacaq.

Birinci Ağalı kəndi. Bura da dağıdılıb. Amma bəzi evlər qalıb. Ermənilər bizim evlərimizdə yaşayıblar. Bundan sonra özümüz yaşayacağıq öz evlərimizdə. Onlar da getsinlər öz vətənlərində yaşasınlar.

Seləli kəndi. Bu kənd də dağıdılıb. Görün nə günə qoyublar. Mən hələ müharibədən əvvəl deyirdim ki, bizim bütün kəndlərimiz, şəhərlərimiz talan edilib. Ermənilər dam örtüklərini, pəncərə çərçivələrini, hər şeyi aparıblar. Açıq-aşkar oğurluq ediblər, bizim torpaqlarımızı istismar ediblər. Evin yarısını sökübüb, o biri tərəfdə yaşayıb. Baxın, nə günə qoyublar. Talançılar!

Vəhşi düşmən keçib bu torpaqlardan, dağıdıb ki, heç vaxt Azərbaycan əhalisi buraya qayıtmasın. İnşallah, hamımız qayıdacağıq. Hər şey dağıdılıb.

Birinci xanım Mehriban Əliyeva: Yəqin ora hərbi hissədir.

**Prezident İlham Əliyev: Orada artıq Azərbaycan bayrağı ucaldılıb. Hərbi hissələr tikiblər ki, torpaqlarımızı əbədi işğal altında saxlasınlar, amma rədd etdik onları, qovduq torpaqlarımızdan. Torpaqların sahibləri qayıdır.**

Baxın, ağacları necə qırıblar. Baxın, vəhşi düşmən neyləyib, bütün ağacları kəsib. Zəngilanın çox zəngin təbiəti var, nadir meşələri var. Çinar ağacları. Baxın, neyləyib düşmən. Baxsın bütün dünya, ermənipərəst qüvvələr bu günə qədər kimi müdafiə edirlər? Bizə qarşı qətnamələr qəbul edən ölkələr baxsınlar, gözlərini açsınlar. Riyakar siyasətçilər açın gözlərinizi, baxın. Sizin parlamentləriniz qətnamələr qəbul edib. Bizim üçün o qətnamələrin heç bir əhəmiyyəti yoxdur, bir kağız parçasıdır. Amma iş ondadır ki, bizə qarşı yenə əsassız ittihamlar irəli sürülür. Fransa parlamentinin deputatları, Belçika, Hollandiya parlamentlərinin deputatları, baxın, sizin sevimli ermənilər nələr ediblər bu torpaqlarda? Açın xəritəyə baxın, ensiklopediyaya baxın, görün Zəngilan rayonu, Qubadlı rayonu hansı ölkənin tərkib hissəsidir. Qətnamələr qəbul edirsiniz. Başınıza dəysin bu qətnamələr. Azərbaycanı ittiham edirlər.

Qubadlının Xanlıq kəndi. Xanlıq kəndi uğrunda şiddətli döyüşlər gedirdi. Ermənilər bizim bu tarixi, qədim kəndimizə eybəcər ad veriblər. Xanlıq kəndi Qubadlı rayonunun ərazisində yerləşir. Biz indi Qubadlı rayonunun ərazisindəyik. Ermənilər Xanlıq kəndində özləri üçün hərbi istehkam, hərbi baza qurmuşdular. Xanlıq kəndində qanunsuz məskunlaşma aparılmışdı. Xaricdən gətirilən ermənilər burada qanunsuz yollarla yerləşdirilmişdilər. Bu da hərbi cinayət sayılır. Cenevrə konvensiyalarına görə işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma aparan ölkə cinayət törətmiş olur. Baxın, xaricdən gələn ermənilər üçün xaricdə yaşayan ermənilərin pulu ilə Xanlıqda qəsəbə salınıb.

Kənd təsərrüfatı texnikası. XX əsrin 50-ci illərində istehsal olunub. Xaricdə yaşayan ermənilər cinayət törədiblər. Xaricdən erməniləri gətirib bizim torpaqlarımızda məskunlaşdırıblar. Xanlıq qəsəbəsində azərbaycanlıların evlərini söküb sonra ermənilər üçün evlər tikiblər. Bu da ermənilərin maşını. Bax, bu maşınları sürürdülər onlar. Bu da bizim qəhrəman əsgərlərimizin adları. Öz adlarını yazıblar bu evlərin üzərində. Biləsuvar, Şabran, Sabirabad, Şuşa, Oğuz. Bax, qanunsuz məskunlaşmaya cavab budur. Bu da ermənilərin növbəti maşınları, baxın.

*Ardı Səh. 3*



## Prezident İlham Əliyev doğum günü münasibətilə onu təbrik edənlərə təşəkkür edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev doğum günü münasibətilə ona təbrik məktubları göndərənlərə təşəkkür edib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində bununla bağlı video paylaşıb.

Dövlətimizin başçısı deyib: Doğum günüm münasibətilə mənə çoxsaylı təbriklər, məktublar göndərilir. Bütün bu təbrikləri göndərən insanlara təşəkkürümü bildirirəm. Heç vaxt öz doğum günümü qeyd etməmişəm. Həmişə doğum günümdə məcburi köçkünlərlə, şəhid ailələri ilə görüşmüşəm. Bu il isə doğum günüm ərəfəsində Mehriban xanımla birlikdə işğaldan azad edilmiş torpaqlarda - Zəngilanda, Qubadlıda olmuşam və əsgərlərlə, əgər belə deməк mümkündürsə, bu günü qeyd etmişəm.

Bu gün də Bakıdayam, ailə üzvlərimlə birlikdə. Bu dəfə də heç bir qeydetmə olmayacaq, heç nəyi qeyd etməyəcəyik. Sadəcə olaraq, özümüz oturub söhbətləşəcəyik, danışacağıq.

2020-ci il sona çatır. Bu il bizim üçün çox uğurlu olub. Tarixi Qələbə qazanmışıq, Zəfər çalmışıq. Torpaqlarımızı işğalçılardan azad etmişik. Eyni zamanda, kədərli il olub, şəhidlər vermişik. Gənc övladlarımız Vətən uğrunda, torpaq uğrunda həlak olub şəhidlik zirvəsinə ucalmışlar. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Allah onların yaxınlarına səbir versin! Allah bütün yaralı hərbçilərimizə şəfa versin!

Əminəm ki, bundan sonrakı illər də ölkəmiz üçün uğurlu olacaq. Azərbaycan inkişaf, tərəqqi yolu ilə gedəcək, dağıdılmış şəhər və kəndlərimiz bərpa ediləcək. Gələn ildən böyük quruculuq işləri başlanır. Əminəm ki, Azərbaycan xalqı müharibə dövründə olduğu kimi, bu quruculuq işlərində də birlik, həmrəylik göstərərək, öz böyüklüyünü bütün dünyaya bir daha göstərəcək.

Əziz bacı və qardaşlarım, təbriklərə görə bir daha təşəkkürümü bildirirəm. Sizi qarşıdan gələn Yeni il, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə ürəkdən təbrik edirəm. Qarabağ Azərbaycandır!

# İlham Əliyev: "Biz Ermənistan faşist dövlətinin, terror dövlətinin belini qırdıq!"

*"Əgər o tərəfdən buraya bir güllə atılsa, - 5 kilometrdir buradan Ermənistan sərhədinə, - onları elə günə salarıq ki, ümumiyyətlə, öz adlarını unudarlar"*



**Noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat faktiki olaraq Ermənistan dövlətinin kapitulyasiyası idi. Ermənistan təslim oldu, ağ bayraq qaldırdı, diz çökdü. Ondan sonra Ağdam, Laçın, Kəlbəcər rayonları bir güllə atmadan bizə qaytarıldı**

Əvvəli Səh. 2

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın qanunsuz məskunlaşma apardığı Qubadlının Xanlıq kəndinə gəldilər, burada hərbçilərlə görüşdülər.

**Prezident İlham Əliyev: Salam uşaqlar.**

Əsgərlər: Sağ olun!

**Prezident İlham Əliyev: Nə var, nə yox, necəsiniz?**

Əsgərlər: Çox sağ olun!

**Prezident İlham Əliyev: Xidmət necə keçir?**

Əsgərlər: Əla. Hər şey yaxşıdır.

**Prezident İlham Əliyev: Çox yaxşı. Bu, ermənilərin bizim qədim kəndimizdə saldığı bir qəsəbədir. Bizim evlərimizi söküb, ondan sonra da xaricdən gələn ermənilərin pulu ilə bu qəsəbə salınıb. İndi biz burada yaşayırıq. Siz burada məskunlaşmısınız, xidmət göstərirsiniz. Biz öz doğma torpaqlarımıza qayıtmışıq. Bu torpaqları döyüş meydanında azad etmişik. Düşməni öz torpaqlarımızdan qovmuşuq, bax, sizin kimi əsgərlərin sayəsində. Bütün dünya gördü ki, Azərbaycan əsgəri, Azərbaycan zabiti nəyə qadirdir.**

Gəlin uşaqlar, gəlin.

Əsgərlər: Xoş gəlmisiniz, cənab Prezident.

**Prezident İlham Əliyev: Xoş gördük. Bu, bizim qədim torpağımızdır. Əsrlərboyu xalqımız bu torpaqlarda yaşayıb.**

Əsgər: Ay maşallah, igiddir, əsl igid.

**Prezident İlham Əliyev: Salam, salam. Sonra şəkil çəkdirək.**

Döyüş meydanında gücümüzü göstərdik. Erməniləri torpaqlarımızdan qovduq. Azərbaycan bayrağını torpaqlarımızda ucaltdıq. Azərbaycan xalqının ən böyük arzusunu yerinə yetirdik, döyüş meydanında, danışıqlar yolu ilə yox. Bizim başımızı aldadırdılar. Bu 27 il ərzində ermənilər burada özləri üçün qəsəbə salıblar, xaricdən erməniləri gətiriblər. Xanlıq qəsəbəsinə bir eybəcər erməni adı veriblər.

Əsgərlər: "Onları iti qovan kimi qovduq" sözləriniz şüarımızdır.

**Prezident İlham Əliyev: Gördülər bizim gücümüzü. Hesab edirdilər ki, bizim torpaqlarımızda əbədi oturacaqlar, bizə meydan oxuyacaqlar. Səbrimiz tükəndi, dedim irəli.**

Əsgərlər: Var olun, var olun, var olsun Azərbaycan! Allah Sizi bizim başımızın üstündən əskik etməsin!

**Prezident İlham Əliyev: Qəhrəman Azərbaycan əsgəri öz gücünü bütün dünyaya göstərdi. Mənə məlumat verilir ki, indi dünyanın aparıcı ölkələrinin ali hərbi məktəblərində bizim döyüş taktikamız öyrənilir. Bu, bir yenilikdir, XXI əsrin müharibəsidir. Həm peşəkarlıq, həm iradə, milli ruh, qəhrəmanlıq hesabına torpaqlarımızı işğalçılardan azad etmişik.**

Əsgərlər: Sizin başçılığınız və iradəniz sayəsində.

**Prezident İlham Əliyev: Sağ olun.**

Əsgərlər: Biz sizinlə fəxr edirik. Yaşasın Azərbaycan!

**Prezident İlham Əliyev: Yaşasın Azərbaycan əsgəri!**

Əsgərlər: Qarabağ Azərbaycandır!

**Prezident İlham Əliyev: Gəlin, şəkil çəkdirək.**

Əsgər: Ad gününüz mübarək, yüz yaşayın, Allah ömrünüzü uzun eləsin!

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı şəhərinə yola düşdülər.

**Prezident İlham Əliyev: Qubadlı rayonunun ərazisindən iki böyük çay keçir: Həkəri çayı və Bazarçay. Onlardan biri də budur, baxın. Çox güman ki, bu, Həkəri çayıdır. Bura isə Aşağı Mollu kəndidir. Şəhidimiz Əsgərov Rüfətin şəkli. Allah rəhmət eləsin! Bütün şəhidlərimizə Allah rəhmət eləsin!**

Birinci xanım Mehriban Əliyeva: Allah rəhmət eləsin!







**Prezident İlham Əliyev: Qubadlı rayonunun gözəl mənzərəsi. Yenə də dağıdılmış kənd. Hər şeyi yenidən quracağıq, yolları da, bütün infrastrukturu da. Gözəl mənzərədir.**

Bu da yəqin ki, Bazarçaydır. Çünki Qubadlının bir tərəfindən Həkəri çayı axır, digər tərəfindən Bazarçay, bax, buradan görünür. Ona Bərgüşad çayı da deyirlər. Qəzyan kəndi. Bax, erməncə nəsə yazıblar orada. Bunu sökmək lazımdır, gəlin sökün.

Diləlimüskənli kəndi. Bu kənd də dağıdılıb. Bütün evlər dağıdılıb. Bir-iki ev qalıb, orada da düşmən yaşayıb. Bu da Saray kəndidir. Saray kəndi Qubadlı şəhərinin yaxınlığında yerləşir. Bu kənd də dağıdılıb.

Baxın, Qubadlı şəhərini düşmən nə günə qoyub. Bütün binalar dağıdılıb. Ancaq özləri üçün hərbi hissə tikiblər. Bu da Qubadlı şəhəri. Bu, yəqin ki, onların anbarları olub. Bu ev də sökülüb. Qubadlı şəhərinin girəcəyində ermənilər hərbi baza tikiblər. Gün də çıxdı. Təbiət də bizi alqışlayır, salamlayır. Sahibləri gəlib bu torpağa. Gör nə gündədir Qubadlı şəhəri? Nə günə qoyub düşmən bizim şəhərimizi?

*Ardı Səh. 4*

# İlham Əliyev: "Biz Ermənistan faşist dövlətinin, terror dövlətinin belini qırdıq!"

*"Əgər o tərəfdən buraya bir güllə atılsa, - 5 kilometrdir buradan Ermənistan sərhədinə, - onları elə günə salarıq ki, ümumiyyətlə, öz adlarını unudarlar"*

Əvvəli Səh. 3

Prezident İlham Əliyev Qubadlıda Azərbaycan bayrağını ucaltdı. Dövlətimizin başçısı burada çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

- Bu gün səhərdən yağış yağırdı, biz Qubadlıya çatanda gün çıxdı. Təbiət də bizi salamlayır, bizi alqışlayır. Qubadlıya öz sahibləri qayıdıb. Qubadlının işğaldan azad edilməsi tarixi hadisə idi. Oktyabrın 25-də Qubadlı şəhərinin azad edilməsi bizim qələbəmizi yaxınlaşdırdı. Qubadlı uğrunda şiddətli döyüşlər gedirdi, şəhidlər vermişik. Onların arasında Qubadlı rayonundan olan Milli Qəhrəman Şükür Həmidov öz doğma diyarı uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Şükür Həmidova mən Milli Qəhrəman adını Aprel döyüşlərindən sonra verdim, göstərdiyi qəhrəmanlığa görə. Allah ona rəhmət eləsin! Allah bütün şəhidlərimizə rəhmət eləsin! Azərbaycan hərbçiləri, o cümlədən Şükür Həmidov dövlət tərəfindən yüksək döyüş ordenləri ilə təltif edilmişdir.

Qubadlı rayonunun azad edilməsi əməliyyatı bir neçə gün çəkdi. Zəngilan şəhəri oktyabrın 20-də azad olunandan sonra təbii ki, bizim növbəti istiqamətimiz Qubadlı rayonu idi və şəhərdə ermənilər güclü istehkam qurmuşdular. İndi şəhərdən əsər-əlamət qalmayıb, bütün binalar dağıdılıb, sökülüb və yol boyunca Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının bütün kəndləri, qəsəbələri dağıdılıb. Ancaq burada, şəhərin girəcəyində düşmən hərbi baza yaratmışdı. Bu yüksəkliklərdə düşmənin hərbi birləşmələri yerləşmişdi. Ona görə Qubadlı şəhərini azad etmək o qədər də asan məsələ deyildi. Gərək, ilk növbədə, ermənilərin istehkamları məhv ediləydi, onlardan biri Xanlıq qəsəbəsində yerləşirdi. Orada güclü istehkam qurmuşdular və Xanlıq qəsəbəsini onlar özləri üçün bir baza kimi yaratmışdılar. Xaricdə yaşayan ermənilər orada qəsəbə salmışdılar. İndi bu qəsəbədə Azərbaycan əsgərləri yerləşib. Xaricdə yaşayan ermənilərin pulu ilə xaricdən ermənilər gətirilib və qanunsuz şəkildə Qubadlıda yerləşdirilib. Bu, özlüyündə hərbi cinayətdir. Bu cinayətə və bütün digər cinayətlərə görə Ermənistan dövləti cavab verəcəkdir.



**Dedik yetər artıq, bu əsarət yetər! Bizim şəhərlərimiz əsarət altında nə qədər qalacaq?! Mənfur düşmən bizim təbiətimizi nə qədər murdarlayacaq, bizim torpağımızda gəzəcək, yeyəcək, içəcək, rəqs edəcək, bizi təhqir edəcək. Dedik ki, düşmənə yerini göstərəcəyik, düşməni torpaqlarımızdan qovacağıq və qovduq da!**



Qubadlını azad etmək üçün, ilk növbədə, biz bu yüksəklikləri götürməli idik. Çünki düşmən bu yüksəkliklərdən müntəzəm olaraq hərbçilərimizə atəş açırdı. Eyni zamanda, Ermənistan ərazisindən bizə atəş açılırdı. Nəzərə alsaq ki, Azərbaycan Ermənistan ərazisinə keçmək fikrində deyildi və mən bunu müharibə zamanı dəfələrlə bildirmişdim. Onlar hesab edirdilər ki, bu imkanlardan istifadə edib, bizim hücumumuzun qarşısını ala bilərlər. Buradan, Qubadlı şəhərindən Ermənistan sərhədinə, bax, o istiqamətdən 5 kilometr məsafədir. Həm oradan ağır artilleriya ilə, həm də bu yüksəkliklərdən müxtəlif növ silahlardan istifadə edərək bizim əsgərlərimizi, hərbçilərimizi atəşə tutmuşlar. Ona görə Qubadlı əməliyyatı xüsusi peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan Ordusu da bu peşəkarlığı, fədakarlığı göstərib. İlk növbədə, şəhərə hakim olan yüksəkliklər götürüldü, ətrafda yerləşən kəndlər, o cümlədən Xanlıq qəsəbəsi, Padar, Sarıyataq, Mahmudlu kəndləri götürüldü və strateji yüksəkliklər ələ keçirildi. Ondan sonra Azərbaycan Silahlı Qüvvələri şəhərə girib, buranı da düşməndən təmizləyiblər.

Qubadlı rayonunun və Qubadlı şəhərinin azad edilməsi bizə böyük strateji üstünlük təmin edirdi. Çünki Qubadlıdan sonra növbəti istiqamət Laçın rayonu idi. Hər gün döyüş əməliyyatı planları mənim tərəfimdən təsdiq edilirdi və hər gün görülmüş işlərə yekun vurularaq məsələ təhlil edilirdi - gün ərzində görülmüş işlər bizim planlarımıza hansı dərəcədə uyğundur və biz hansı nailiyyətlərə çata bilmişik. Qubadlıdan Laçın rayonunun cənub hissəsinə gedən yol daim atəş altında idi. Çünki Laçın rayonuna gedən yol düz Ermənistanın dövlət sərhədinin yanı ilə keçir, orada məsafə bəlkə də 10-20 metrdir və Ermənistan daim o tərəfdən atəş açırdı. Ona görə bizim hərbi birləşmələrimiz digər müxtəlif yollarla, cığırlarla dağları aşaraq Laçın rayonunun strateji yüksəkliklərində yerləşmişdir. Beləliklə, Laçın rayonunun cənub hissəsində yerləşən Güləbird kəndi, Səfiyan kəndi, Türklər kəndi azad edilib və eyni zamanda, strateji yüksəkliklər ələ keçiriləndən sonra bu, bizə imkan verdi ki, Laçın dəhlizi artıq atəş altına düşsün.

Düşmən bizi bu tərəfdən gözləyirdi. Çünki təbii ki, düşmən bilirdi Şuşa azad edilməmiş müharibə dayana bilməz. Düşmən hesab edirdi ki, biz Laçın rayonunun cənub hissəsini götürəndən sonra bu tərəfdən Şuşaya gedəcəyik. Biz də bilirdik ki, düşmən bizi orada gözləyir. Biz Şuşaya başqa yolla getdik, onların gözləmədiyi yoldan keçdik. Bu günə qədər də onlar inana bilmirlər ki, bizim qəhrəman əsgər və zabitlərimiz o dağlardan, dərələrdən, meşələrdən necə keçərək Şuşaya yaxınlaşıb və Şuşanı işğaldan azad ediblər. Onlar bizi buradan gözləyirdilər, eyni zamanda, Xocavənd rayonunun Qırmızıbazar qəsəbəsi istiqamətində gözləyirdilər. Biz isə Şuşaya başqa yolla getdik. Şuşaya yaxınlaşaraq bir neçə kəndi azad etdik, o cümlədən Sığnaq, Çanaxçı və Daşaltı kəndini azad etdik. Qubadlı əməliyyatının çox böyük əhəmiyyəti var idi.



Ardı Səh. 5

# İlham Əliyev: "Biz Ermənistan faşist dövlətinin, terror dövlətinin belini qırdıq!"

*"Əgər o tərəfdən buraya bir güllə atılsa, - 5 kilometrdir buradan Ermənistan sərhədinə, - onları elə günə salarıq ki, ümumiyyətlə, öz adlarını unudarlar"*







**Biz 30 il ərzində dəfələrlə UNESCO-ya müraciət etmişik, dəfələrlə bildirmişik ki, bizim məscidlərimiz dağıdılıb, tarixi abidələrimiz dağıdılıb, bizim tarixi abidələrimiz erməniləşdirilir, bir dəfə missiya göndərildimi? Bir dəfə bizim müraciətimizə cavab verildimi? Elə müharibə qurtaran kimi başlayıblar ki, erməni xalqının abidələri gərək qorunsun. Biz bütün abidələri qoruyuruq, bütün xalqların abidələrini qoruyuruq və dünya bunu bilir. Amma baxın, görün, məscid olub bura, UNESCO, buraya gəl, gəl gör. Avropa Şurası səssiz qalma, gəl, gör buranı! Bütün məscidlər dağıdılıb**

Əvvəli Səh. 4

Çünki Qubadlıdan sonra biz Şuşa şəhərini işğaldan azad etdik. Oktyabrın 25-də Qubadlı azad olundu və noyabrın 8-də Şuşa şəhəri azad edildi. Beləliklə, düşmən təslim olmağa məcbur oldu.

Müharibə zamanı gördüyümüz işlər bu gün aparıcı ölkələrin ali hərbi məktəblərində öyrənilir. Bu haqda məndə dəqiq məlumat var. Bizim xarici tərəfdaşlarımız bu məlumatı bizə çatdırıblar ki, ən inkişaf etmiş ölkələrin ali hərbi məktəblərində Azərbaycanın döyüş taktikası, bizim əməliyyatlar öyrənilir və bu, müasir döyüş taktikasıdır. Bizə qədər dünyada heç kim bu taktikadan istifadə etməyib. Burada bütün vacib amillər bir məqsədi güdürdü ki, az itkilərlə düşmənə sarsıdıcı zərbələr vuraraq, düşmənin ordusunu faktiki olaraq məhv edərək hədəfə çataq və belə də oldu. Biz sentyabrın 27-də əks-hücum əməliyyatına başlayaraq, sonra hücum əməliyyatına keçdik. Çünki biz torpaqlarımızı azad etməli idik. Ermənistanın təxribatlarına son qoyulmalı idi. Günahsız insanların həlak olmasına son qoyulmalı idi və əks-hücumdan sonra hücum edən tərəf, adətən, daha çox itki verir. Ancaq bizim itkilərimiz müharibənin miqyasına görə həddindən çox aşağıdır. Hər bir şəhidimiz əvəzolunmazdır, hər bir insanın həlak olması böyük faciədir, onun özü üçün, yaxınları üçün, qohumları üçün, xalq üçün. Ancaq onu da bildirməliyik ki, biz istədiyimizə az itkilərlə nail olduq. Məhz buna görə ola bilər bəziləri hesab edir ki, bu məsələ daha da tez həll oluna bilərdi. Halbuki 44 gün ərzində bu ərazini işğaldan azad etmək və düşməni məhv etmək, düşmən ordusunu məhv etmək, düşməni təslim olmağa məcbur etmək böyük qəhrəmanlıqdır.

Biz çalışırdıq, öz taktikamızı elə quraq ki, itkilər az olsun. Eyni zamanda, bizim taktikamızda gözlənilməz addımlar da kifayət qədər çox idi. İstifadə etdiyimiz taktiki üsullar dünya hərb elmi üçün yenilikdir. Vaxt keçdikcə bu məsələ ilə bağlı daha geniş məlumat veriləcək. Ancaq bu gün də artıq xarici mətbuata sızılan məlumatlar da onu göstərir ki, bu müharibə hərbi ekspertlər tərəfindən çox ciddi təhlil edilirdi və edilir. Peşəkarlıq, qəhrəmanlıq, planlaşdırma, güclü iradə, milli ruh, texniki təchizat - bütün bu amillər birlikdə və xalq-iqtidar birliyi bizim Qələbəmizi şərtləndirdi.

Hər gün biz irəliyə gedirdik, 44 gün ərzində bir gün də olmayıb ki, biz geri çəkilək. Bir gün də olmayıb ki, hansısa məsələni biz həll etməyək. Hər gün səhər mənim tərəfimdən hər günün döyüş-əməliyyat planı təsdiq edilirdi, günün sonunda da təhlil olunurdu. Biz bunun nəticəsində qısa müddət ərzində böyük Qələbə qazana bilmişik, öz doğma torpaqlarımızı düşməndən azad edə bilmişik. Düşmənə elə sarsıdıcı zərbələr endirmişik ki, bu günə qədər özünə gələ bilmir.

Noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat faktiki olaraq Ermənistan dövlətinin kapitulyasiyası idi. Ermənistan təslim oldu, ağ bayraq qaldırdı, diz çökdü. Ondan sonra Ağdam, Laçın, Kəlbəcər rayonları bir güllə atmadan bizə qaytarıldı. Bu gün Azərbaycan əsgəri bu rayonlarda xidmət göstərir. Bu da böyük nailiyyətdir. Biz mütləq o bölgələri də, o rayonları da döyüşərək alacaqdıq. Amma çox itkilər verə bilərdik, xüsusilə Ağdam istiqamətində, hər tərəf minalanmışdı və bir neçə müdafiə xətti var idi. Eyni zamanda, xüsusilə hava şəraitini nəzərə alsaq, Kəlbəcər, Laçın rayonlarının döyüşlə azad edilməsi də böyük itkilərə gətirib çıxaracaqdı. Artıq qış başlamışdı, yolları buz bağlamışdı. Kəlbəcərə Göygöl rayonundan keçmək üçün saatlarla vaxt lazımdır.

Ona görə noyabrın 10-da imzalanmış Bəyanatın çox böyük əhəmiyyəti var. Təbii ki, əgər biz o günə qədər böyük ərazini işğalçılardan azad etməsəydik, düşmənin belini qırmasaydıq, düşmən ordusunun məhv edilməsində istədiyimizə nail olmasaydıq, əlbəttə, düşmən onun üçün bu alçaldıcı sənədə qol qoymazdı. Biz onu məcbur etdik, torpaqlarımızdan qovduq və mən verdiyim sözə həmişə olduğu kimi sadiq qaldım. Müharibənin ilk günlərindən demişdim, Ermənistan rəhbərliyi açıq-aşkar bəyan etməlidir ki, nə vaxt, hansı tarixdə bizim torpaqlarımızdan çıxır. Tarix verməlidir bizə. Əgər bu olarsa, biz müharibəni dayandırarıq. Amma bizə tarix verilmədi. Çalışırdılar ki, müxtəlif yollarla xarici ölkələri bu işlərə qoşaraq öz çirkin əməllərini davam etdirsinlər, işğalı davam etdirsinlər. Əgər Ermənistan rəhbərliyi o vaxt mənim sözümə baxıb düzgün addım atsaydı, belə alçaldıcı vəziyyətə düşməzdi. Mən demişdim ki, axıra qədər gedəcəyik və axıra qədər də getdik, lazım olan anda dayandıq, üç rayonu bir güllə atmadan, bir itki vermədən qaytardıq, ərazi bütövlüyümüzü bərpa etdik.

Bu gün vaxtilə işğal edilmiş torpaqlarda Azərbaycan Bayrağı dalğalanır. Bu gün Ali Baş Komandan kimi, mən azad edilmiş bu torpaqlarda əsgərlərlə görüşürəm. Artıq bu bölgənin, Qarabağ bölgəsinin bərpası ilə bağlı konkret addımlar atılır, ilkin kontraktlar imzalanmışdır. Mənfur düşmən hər şeyi dağıdıb. Yol boyunca Cəbrayıl rayonundan, azad edilmiş torpaqlardan başlayaraq, bax, Qubadlıya qədər hər tərəf dağıdılıb. Bir dənə də salamat bina yoxdur. Təkcə Qubadlıda bir neçə bina qalıb ki, burada hərbçilər və onların ailə üzvləri yaşayıblar.

Ardı Səh. 6

# İlham Əliyev: “Biz Ermənistan faşist dövlətinin, terror dövlətinin belini qırdıq!”

*“Əgər o tərəfdən buraya bir güllə atılsa, - 5 kilometrdir buradan Ermənistan sərhədinə, - onları elə günə salarıq ki, ümumiyyətlə, öz adlarını unudarlar”*

Əvvəli Səh. 5



Bütün binalar, bütün evlər, tarixi abidələrimiz, məscidlərimiz, qəbirlərimiz mənfur düşmən tərəfindən dağıdılıb. Bu cinayətlərin hamısı sənədləşdirilir.

Mən azad edilmiş bu bölgələrdə olarkən, ermənilər tərəfindən törədilmiş vəhşiliyi görərkən bir daha əmin oluram ki, biz nəinki özümüz üçün, bölgəmiz üçün böyük iş görmüşük. Biz erməni faşizminin başını əzdik. Bizim torpaqlarımızı erməni faşizmi bu günə saldı. Biz Ermənistan faşist dövlətinin, terror dövlətinin belini qırdıq və bu gün məcbur olub, bizim qabağımızda diz çöküb və düzgün nəticə çıxarmalıdır. Ermənistan cəmiyyəti düzgün nəticə çıxarmalıdır. Revanş hissi ilə yaşayacaqlarsa, onların axırı pis olacaq. Əgər o tərəfdən buraya bir güllə atılsa, - 5 kilometrdir buradan Ermənistan sərhədinə, - onları elə günə salarıq ki, ümumiyyətlə, öz adlarını unudarlar.

Biz öz istəyimizə nail olduq. Dekabrın 10-da Zəfər paradı keçirildi. Zəfər paradında biz düşmənin məhv edilmiş və qənimət götürülmüş texnikasını nümayiş etdirdik və öz hərbi potensialımızı nümayiş etdirdik. Biz bundan sonra da ordumuzu gücləndirəcəyik. İndi gələn ilin büdcəsi müzakirə olunur. Mənim təşəbbüsümlə hərbi xərclər artırılır. İlk növbədə, ona görə ki, müharibə zamanı biz bir çox silah-sursatdan istifadə etdik, onları bərpa etmək lazımdır. Eyni zamanda, müasir texnikanın bundan sonra da alınması nəzərdə tutulur. Bundan sonra da ordumuzun müasirləşdirilməsi, ordumuzun döyüş potensialı, ordumuzun peşəkarlığı daim diqqət mərkəzində olacaqdır.

Biz Qələbə qazanmışıq, düşməni torpaqlarımızdan qovmuşuq. Amma heç kim təminat verə bilməz ki, bir neçə ildən sonra erməni faşizmi yenə baş qaldırmasın. Ona görə Azərbaycan dövləti həmişə güclü olmalıdır. Azərbaycan dövlətinin həmişə güclü ordusu olmalıdır. Biz gücümüzü bilirik. Dünya da bizim gücümüzü bilir. Biz nəinki öz ərazimizdə, istəsəydik Ermənistan ərazisində istənilən hərbi əməliyyatı tamamilə yerinə yetirə bilərdik. Bu gün də yerinə yetirə bilərik. Ermənistan tərəfi də bunu bilir. Sadəcə olaraq, biz həmişə beynəlxalq hüquqa hörmətlə yanaşmışıq və həmişə demişəm ki, bizim başqa ölkələrin torpaqları ilə işimiz yoxdur. Biz öz torpağımızda yaşamalıyıq, yaşayacağıq, düşməni öz torpağımızdan qovmuşuq, bütün bu bölgəni bərpa edəcəyik.

Qubadlı rayonu ölkəmizin ən gözəl rayonlarından biridir və qısa müddət ərzində lazım olan bütün bərpa işləri də nəzərdə tutulur. Xarici ekspertlər cəlb olunub, dəvət edilib, onlar bütün qiymətləndirmə işlərini aparacaqlar. Videosənədlər, fotosənədlər toplanır, bütün dəymiş ziyan hesablanacaq. Bizim torpaqlarımız istismar edilirdi, təbii ehtiyatlarımız istismar edilirdi. Zəngilan rayonunda qızıl yatağı istismar edilirdi. Azad edilmiş digər ərazilərdə də, həmçinin. Bütün bunların hesabını Ermənistan dövləti verəcək. Bununla paralel olaraq bütün bərpa işləri təmin ediləcək və biz bütün şəhər və qəsəbələrimizi, kəndlərimizi bərpa edəcəyik, insanlar buraya qayıdacaq və biz öz torpağımızda bundan sonra əbədi yaşayacağıq. Bundan sonra heç kim bizi öz torpağımızdan çıxara bilməz.

Mən müharibədən əvvəl dəfələrlə Azərbaycan xalqına müraciət edərək deyirdim ki, bu gün Azərbaycan güclü ölkədir və tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Mən o vaxt təkcə iqtisadi yox, o cümlədən hərbi potensialımızı da nəzərdə tuturdum. Tarix və müharibənin nəticələri onu göstərdi ki, mən haqlı idim. Azərbaycan tarixdə heç vaxt belə parlaq Zəfər əldə etməmişdir, tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Bizim gücümüz birliyimizdədir. Biz birlik nümayiş etdirmişik, əzmkarlıq nümayiş etdirmişik, qəhrəmanlıq nümayiş etdirmişik və bunun nəticəsində dəmir yumruqla düşmənin başını əzib öz doğma torpaqlarımızı azad etmişik. Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan əsgəri! Yaşasın Azərbaycan!

x x x

Sonra dövlətimizin başçısı və birinci xanım işğaldan azad olunmuş Zəngilan rayonuna yola düşdülər.

Prezident İlham Əliyev: Zəngilan. Zəngilan şəhərinə az qalıb.

Düşmən Zəngilanda da hər şeyi dağıdıb. Baxın, dağılmış evlər. Baxın, bu evi nə günə qoyublar.

Prezident İlham Əliyev Zəngilanda Azərbaycan bayrağını ucaltdı.

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilanda mənfur düşmən tərəfindən dağıdılan məscidə gəldilər.

Məscidin qarşısında çıxış edən Prezident İlham Əliyev dedi:

- Görün mənfur düşmən məscidi nə günə salıb. Bizim bütün dini abidələrimiz düşmən tərəfindən dağıdılıb. Dünya 30 il ərzində buna səssiz qalıb. Biz bu məsələni dəfələrlə qaldırmışdıq, beynəlxalq kürsülərdən qaldırmışdıq, tarixi-dini abidələrimiz dağıdılıb, təhqir edilib. Biz o videoları dəfələrlə göstərirdik. Ağdam məscidini, Şuşa məscidlərini, o vaxt işğal altında olan digər məscidlərin vəziyyətini göstərərək deyirdik ki, mənfur düşmən bizim dini abidələrimizi dağıdıb, təhqir edib.

Zəngilan işğaldan azad olunandan sonra rayonda yerləşən məscidlərin birində donuzların saxlanması ilə bağlı videokadrlar nümayiş etdirilmişdir. Düşmən bizim dinimizi təhqir edib, bütün müsəlmanları təhqir edib. Bax, burada məscid olub, indi yoxdur, dağıdıblar. İndi bəziləri azad edilmiş torpaqlarda erməni xalqının dini irsi haqqında məsələ qaldırırlar. Bəs, bizim milli-dini irsimiz haqqında niyə heç kim məsələ qaldırmayıb? Bu yaxınlarda UNESCO-nun bir məmuru əsassız bir ifadə işlədib ki, guya bizə müraciət olunub, Azərbaycan isə səssiz qalıb. Biz 30 il ərzində dəfələrlə UNESCO-ya müraciət etmişik, dəfələrlə bildirmişik ki, bizim məscidlərimiz dağıdılıb, tarixi abidələrimiz dağıdılıb, bizim tarixi abidələrimiz erməniləşdirilir, bir dəfə missiya göndərildimi? Bir dəfə bizim müraciətimizə cavab verildimi? Elə müharibə qurtaran kimi başlayıblar ki, erməni xalqının abidələri gərək qorunsun. Biz bütün abidələri qoruyuruq, bütün xalqların abidələrini qoruyuruq və dünya bunu bilir. Amma baxın, görün, məscid olub bura, UNESCO, buraya gəl, gəl gör. Avropa Şurası səssiz qalma, gəl, gör buranı! Bütün məscidlər dağıdılıb. Yaxşı, məscidi dağıtmaq olar? Məscidi dağıtmaq, deməli, cinayət deyil? Bu ədalətsizlik nə qədər davam edəcək? Bu riyakarlıq nə qədər davam edəcək? Bu ikili standartlar nə qədər davam edəcək? Bu islamofobiya nə qədər davam edəcək? Bunu dağıdan erməni olub. Özündən mədəni millət obrazı yaratmağa çalışan və bəzi xarici himayədarları tərəfindən belə qəbul edilən mədəni adam bunu edər? Mədəni adam məsciddə donuz saxlayar? Bütün dünya bunu görsün! O cümlədən dünya müsəlmanları görsünlər və müsəlman ölkələrinin xalqları görsünlər. Bunu törədən ölkə ilə hansı dostluqdan söhbət gedə bilər? Əfsuslar olsun, biz bunu bu günə qədər eşidirik ki, bəzi müsəlman ölkələri Ermənistana dost ölkə deyirlər. Bu “dost ölkəyə” 20 il rəhbərlik etmiş cəlladlar bunu dağıdıblar. Onlar gəlib dağıdıblar bizim məscidimizi, təhqir ediblər. Bütün dünya bunu görməlidir. Əgər bizə qarşı hər hansı bir irad irəli sürüləcəksə, cavabını verəcəyik. İstənilən beynəlxalq təşkilat gəlsin, bunu görsün, öz hesabatında bunu əks etdirsin, qınasın işğalçı dövləti və görsün ki, biz hansı bəlaya qarşı mübarizə aparmışıq, biz kimi qovmuşuq torpaqlarımızdan, rədd etmişik onları buradan. Görün şəhərlərimizi nə günə salıblar. Bir dənə də salamat bina yoxdur. Cəbrayıldan başlayaraq ta Qubadlıya qədər, Zəngilana qədər azad edilmiş torpaqlardan gəlmişəm. Bir dənə də salamat bina yoxdur. Bütün binalar sökülüb, dağıdılıb, kəndlərimizin adları dəyişdirilib, eybəcər adlar verilib, məscidimiz bax, bu günə düşüb. Cavabını verəcək Ermənistan, cavabını verəcək! Veribdir, qovmuşuq torpaqlarımızdan, məhv etmişik onları, onların ordusunu. Əminəm ki, bu görüntülərdən sonra bizə irad tutmağa çalışan “beynəlxalq məmurlar” öz dillərini qarınlarına qoyacaqlar. Biz isə bu məscidi bərpa edəcəyik və bizim vətəndaşlar gəlib burada ibadət edəcəklər, buradan azan səsi gələcək, bu torpaqlara həyat qayıdacaq.

x x x

Prezident İlham Əliyev: İndi isə Zəngilandan Bakıya qayıdırıq. Yolboyu Zəngilanın gözəl təbiətini seyr edirik. Görün, necə gözəl yerlərdir. Qubadlı, Zəngilan rayonlarında olarkən bir daha gördük ki, vəhşi düşmən bizim şəhər və kəndlərimizi nə günə qoyub. Otuz il ərzində işğal altında olan torpaqlar öz sahiblərinə qayıdıb. Biz qayıtmışıq. Düşməni məhv edərək, zəfər çalaraq qayıtmışıq. Bir müddət sonra bu bölgəyə həyat tam qayıdacaq, İnşallah.

İndi istiqamət Bakı şəhəridir. Çəkilişi aparan Mehriban xanıma da təşəkkürümü bildirirəm. Xahiş edirəm özünü də çəksin.

Birinci xanım Mehriban Əliyeva: Dərin hörmət və məhəbbətlə sizin Mehriban.

Prezident İlham Əliyev: Sağ olun, əziz bacı və qardaşlar. Qarabağ Azərbaycandır!

## Gürcüstan portalları Azərbaycan Prezidentinin işğaldan azad olunmuş rayonlara səfərini işıqlandırıb

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad olunmuş Zəngilan, Qubadlı və digər rayonlara səfərləri Gürcüstan portalları tərəfindən işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, ölkənin "report.ge", "24news.ge", "interpress.ge" informasiya portalları Azərbaycan Prezidentinin doğum gününü Qarabağda qeyd etməsindən yazırlar.


ილჰამ და მეჰრიბან ალიევები გუბადლის და ზანგილანის რაიონს ესტუმრნენ - PHOTO

24 დეკემბერი, 2020 10:24

23 დეკემბერს აზერბაიჯანის პრეზიდენტი ილჰამ ალიევი და პირველი ლედი მეჰრიბან ალიევა ოკუპაციისგან გათავისუფლებულ გუბადლის და ზანგილანის რაიონს ესტუმრნენ. ინფორმაციას ადგილობრივი მედია ავრცელებს.

Azərbaycan, rus, gürcü və ingilis dillərində yayımlanan materiallarda oxucular Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin doğum günü olduğu barədə məlumat verilir. Bildirilir ki, doğum günü ərəfəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Qubadlı, Zəngilan və digər rayonlara səfər ediblər. Səfər zamanı Prezident İlham Əliyev işğaldan azad olunmuş torpaqlarda xidmət edən hərbçilərə baş çəkib və onlarla səmimi söhbət edib.

## "Prezidentimizin uğurlu siyasəti sayəsində xalqımızı daha gözəl, firəvan günlər gözləyir"



"Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü, prinsipial, milli maraqlara əsaslanan siyasət nəticəsində ölkəmiz güclü, dinamik inkişaf edən, yüksək beynəlxalq nüfuza malik dövlətə çevrilib. Əsası Ümummilli Liderimiz, böyük dövlət xadimi Heydər Əliyev tərəfindən qoyulan Azərbaycanın inkişaf konsepsiyasının dövlətimizi başçısının rəhbərliyi ilə müasir dövrün çağırışlarına uyğun daha da təkmilləşdirilərək dönmədən və ardıcıllıqla həyata keçirilməsi nəticəsində ölkəmiz iqtisadi inkişaf sürətinə görə dünyada liderlik mövqeyinə yüksəlib". Dünya Bankı Azərbaycanı yenidən 10 islahatçı ölkə sırasına daxil edib. Bu fikirləri SİA-ya Milli Məclisin İntizam komissiyasının sədri, Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin üzvü Eldar İbrahimov deyib.

Eldar İbrahimov bildirib ki, Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində Azərbaycanın iqtisadi sahədə əldə etdiyi nailiyyətlər, ölkəmizin imkanlarının artması vətəndaşların həyat şəraitinin əsaslı şəkildə yaxşılaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində genişmiqyaslı tədbirlərin həyata keçirilməsi ilə müşayiət olunub. Bütün bu tədbirlər və onun parlaq nəticələri Prezident İlham Əliyevin "Ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır" tezisinin real həyatda əksini tapdığını göstərir.

YAP İdarə Heyətinin üzvü qeyd edib ki, daxili siyasətdə əldə olunan möhtəşəm nailiyyətlər Azərbaycanın beynəlxalq mövqelərinin də möhkəmlənməsinə, müstəqil, milli mənafelərə uyğun, praqmatik xarici siyasət həyata keçirilməsinə əlverişli zəmin yaradıb: "Bu gün Azərbaycan dünya ictimaiyyəti tərəfindən güclü, etibarlı, sözünə etimad olunan dövlət kimi qəbul olunur. "Bunun ən mühüm örnəklərindən biri 2011-ci ildə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyə keçirilən səsvermə zamanı müşahidə olundu. Azərbaycan Respublikası 155 ölkənin dəstəyini qazanaraq 2 il müddətinə Təhlükəsizlik Şurasına üzv seçilərək beynəlxalq münasibətlərin güclü, qüdrətli aktoru kimi qəbul olunduğunu sübuta yetirdi. Eyni zamanda, ötən il Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünün keçirilməsi və ölkəmizin bu təşkilata sədr seçilməsi, eyni zamanda Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına sədr seçilməsi və bu Zirvəyə ev sahibliyi etməsi müstəqillik tariximizdə mühüm siyasi hadisələr olmaqla bir daha Azərbaycanın dünyada güclənən mövqelərini və nüfuzunu ifadə edir. Cənab Prezidentimizin Qoşulmama Hərəkatının sədri kimi pandemiyaya qarşı mübarizəyə həsr olunmuş dövlət və hökumət başçılarının iştirakı ilə BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi cənab İlham Əliyevin beynəlxalq miqyasda nüfuzunun göstəricisidir".

Eldar İbrahimovun sözlərinə görə, Prezident İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində Dağlıq Qarabağ münaqişəsinə son qoyuldu: "Ermənistanın bitməyən fitnəkarlığı, xüsusilə sentyabrın 27-də etdiyi növbəti təxribatçı addımları nəticəsində bütün cəbhəboyu başladılmış əks-hücum əməliyyatları, İkinci Qarabağ savaşı cəmi 44 gündən sonra tarixi qələbəmizlə başa çatdı. 30 ildir davam edən qanlı münaqişəyə cəmi 44 günlük müharibə - Vətən müharibəsi ilə son, nöqtə qoyuldu. Artıq silah səsləri gəlmir, kəndlərimiz, qəsəbələrimiz, rayon və şəhərlərimiz atəşə tutulmur, evlər dağılmır, insanlarımız, vətəndaşlarımız yaralanmır, xəsarət almır, həlak olmur. İnsanlarımızın gözlərindən yalnız və yalnız sevinc, qələbə, zəfər göz yaşları axır, sevinc-sevincə qarışır, hamı qalib xalqın, qalib Vətənin övladları kimi, alnı açıq, başı dik gəzir, möhtəşəm qələbəni, zəfəri qeyd edirik. Bütün bunlara görə, müzəffər Ali Baş Komandan, böyük sərkərdə İlham Heydər oğlu Əliyevə borcluyuq. Bunları bizlərə yaşadan məhz cənab Prezident, qəhrəman Ali Baş Komandan oldu. Bu qələbənin baş memarı məhz cənab İlham Əliyevdir".

YAP İdarə Heyətinin üzvü qeyd edib ki, 30 ilə yaxın düşmən tapdağında olmuş torpaqlarımızda artıq müqəddəs üçrəngli bayrağımız dalğalanır: "27 ildən çoxdur əzablı, məşəqqətli məcburi köçkünlük həyatı yaşayan insanlarımız öz doğma yurd yerlərinə qayıdıb yaşayacaqlar. Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın həmin guşələri yenidən dirçələcək, yurd yerlərimiz, işğaldan azad olunmuş ərazilərimiz yenidən qaynar həyatına dönəcək. Prezidentimizin uğurlu siyasəti sayəsində xalqımızı daha gözəl, daha firəvan günlər gözləyir".

## Leonid Kalaşnikov: "Prezident İlham Əliyev Azərbaycanın əsas problemini həll etdi"



Tarixdə Heydər Əliyevin rolunu hər zaman vurğulamışam. Hesab edirəm ki, o, Azərbaycan xalqının ən böyük nümayəndələrindən biri olub. Bir çoxları deyir ki, Heydər Əliyev vaxtilə Sovet İttifaqına rəhbərlik etsəydi, bu qədər bəla baş verməzdi. Bu barədə AZƏRTAC-a müsahibəsində Rusiya Federasiyası Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr komitəsinin sədri Leonid Kalaşnikov bildirib.

Komitə sədri Prezident İlham Əliyevin atasının layiqli oğlu olduğunu qeyd edib. Heydər Əliyev hər şeyə dürüst, ədalətlə yanaşırdı. Bu gün deməliyəm ki, İlham Əliyev Azərbaycan üçün əsas problemi həll etdi. Bu problemi dərhal həll etmək mümkün deyildi. Bunun üçün uzun illər, diplomatik davranış, irəli qaçmamalı və geridə qalmamalı diplomatik fəaliyyət, inkişaf etmiş iqtisadiyyat, hərbi sənaye və eyni zamanda, qonşuları ilə qarşılıqlı əlaqə tələb olunurdu. L.Kalaşnikov qeyd edib ki, MDBMİ-nin məzunu və diplomat kimi İlham Əliyev danışmağı və lazım olan sözləri tapmağı bacarır. "Qarabağdakı hərbi döyüşlər zamanı Azərbaycandakı hadisələri izləyirdim və deyə bilərəm ki, o, ölkədə əsas jurnalist idi. Diplomat kimi gözəl danışmağı bacardığına görə deyil, dürüst bir insan olduğuna görə. Mən də tez-tez çıxış edirəm və bir şəxsin dürüst, ürəkdən danışdığını, vəziyyəti süni şəkildə düzəltməyə çalışmadığını dərhal görürəm. O, yalnız öz xalqı üçün deyil, həm də bütün digər xalqlar üçün vicdanla danışırdı", - deyə rusiyalı siyasətçi vurğulayıb.

L.Kalaşnikov bu yaxınlarda MDB dövlət başçılarının Zirvə görüşünün keçirildiyini xatırladıb: "Azərbaycanın Prezidenti dürüst danışırdı. O, hətta qonşu ölkənin rəhbərliyi haqqında dürüst danışırdı. Sıravi tamaşaçı isə bunu həmişə hiss edir. Mən MDB işləri üzrə komitənin sədri kimi rus dilinin inkişafı ilə bağlı Azərbaycanı həmişə nümunə göstərirəm". "Yeni il ərəfəsində Azərbaycan xalqına həyatda heç zaman kədərli anlar yaşamamasını, layiq olduğu xoşbəxt həyat yaşamasını, Azərbaycanın inkişaf etməsini arzulamaq istərdim", - deyə Leonid Kalaşnikov söyləyib.

## Latviyanın sabiq prezidenti: "Qarabağda status-kvonun dəyişməsi Prezident İlham Əliyevin həqiqi uğurudur"



Qarabağda status-kvonun dəyişməsi Azərbaycan Prezidenti İlham Əliyevin həqiqi uğurudur. Bunu Trend-ə Latviyanın sabiq prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü Valdis Zatlers deyib. O xatırladıb ki, Azərbaycan əraziləri təxminən 30 il ərzində Ermənistanın işğalı altında olub: "Ermənistanın işğal olunmuş ərazilərdə keçirdiyi etnik təmizləmələr nəticəsində çoxlu sayda azərbaycanlı məcburi köçkünə çevrildi. Bu müddət ərzində beynəlxalq ictimaiyyət tərəfindən "dondurulmuş" kimi qəbul edilən münaqişədə status-kvo dəyişmədi. Nə BMT-nin qətnamələri, nə Madrid prinsipləri, nə də ATƏT-in Minsk qrupunun fəaliyyəti münaqişənin həllində irəliləyişi təmin edə bilmədi. Münaqişənin diplomatik yollarla həlli üzrə danışıqlar onilliklər boyunca davam etdi. Bu, beynəlxalq diplomatiyada adi praktikadır".

Sabiq prezident bildirib ki, tarixdə öz siyasi hədəflərinə hərbi güclə nail olmağa çalışan ölkələrin sayı az olmayıb və uğursuzluq təqdirində bu addım beynəlxalq arenada yeni dağıdıcı müharibələrə gətirib çıxarıb: "Amma Qarabağda status-kvonun dəyişməsi Azərbaycan Prezidenti İlham Əliyevin həqiqi uğuru oldu".

V.Zatlers vurğulayıb ki, Azərbaycanın hərbi və siyasi qələbəsi uzun illər ərzində davam etmiş ciddi hərbi hazırlıq nəticəsində mümkün olmuşdur: "Müasir hərbi texnologiyalara investisiyalar, silahlı qüvvələrin şəxsi heyətinin və komandanlığının təlimi, strateji və taktiki planlama hərbi uğurun aparıcı elementləridir. Amma ən əsas amil hərbi əməliyyatların aparılması üçün əlverişli beynəlxalq vəziyyətin yaranmasına imkan vermiş düzgün gözləmə siyasəti idi. Azərbaycan İkinci Qarabağ müharibəsinin yekunlarına əsasən, çox şeylər qazansa da, böyük oyun hələ başa çatmayıb. Azərbaycan üçün bu uğurun möhkəmlənməsinə xidmət edəcək daxili və xarici siyasəti qurmaq çox vacibdir". Onun sözlərinə görə, söhbət azad edilmiş ərazilərin bərpası üçün investisiyalar, infrastrukturun inkişafı və dəstək proqramlarının hazırlanmasından gedir: "Türkiyə və Gürcüstanla iqtisadi əməkdaşlığı daha da fəallaşdırmaq lazımdır. Səmərəli iqtisadi münasibətlər üçün açıq və sülh içində yaşayan ölkə imici çox mühüm əhəmiyyət kəsb edir. Ermənistanda daxili siyasi vəziyyət və atəşkəsin şərtləri ilə bağlı bu ölkə ilə yaxın zamanlarda münasibətlərin yaxşılaşmasını gözləmək real görünmür. Amma münasibətlərin normallaşmasına xidmət edəcək mümkün siyasətin formalaşmasını ləngitmək olmaz".

## Dmitri Savelyev: "Prezident İlham Əliyevin diplomatik istedadı Azərbaycanın dünyada nüfuzunun ciddi şəkildə artmasına imkan verdi"

Müasir müstəqil, güclü Azərbaycanı iki ad olmadan təsəvvür etmək olmaz - Heydər Əliyev və İlham Əliyev. Problemli 1990-cı illərdə ölkəni xilas edən Heydər Əliyevin böyük qəhrəmanlığı və daha sonra İlham Heydər oğlunun idarəetmə istedadı və uzaqgörənliyi Azərbaycanın bu gün dünya arenasında belə əhəmiyyətli rol oynamasına imkan verdi. Bu barədə AZƏRTAC-a müsahibəsində Rusiya Federasiyası Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Dmitri Savelyev bildirib.



O, tarixi baxımdan çox qısa bir müddətdə respublikanın təsirli iqtisadi artım templərinə, vətəndaşların sosial təminatına və yüksək dövlət sabitliyinə nail olduğunu qeyd edib. Bildirib ki, Prezident İlham Əliyevin müdrik rəhbərliyi sayəsində iqtisadiyyat uğurla müasirləşdirilib və bu gün Azərbaycan təkcə neft ixracatçısı deyil, həm də mühüm beynəlxalq nəqliyyat mərkəzidir. Azərbaycanın idmanın, mədəni və dini tolerantlığın inkişafına qlobal töhfəsi danılmazdır. Bütün bunlar, eləcə də Prezident İlham Əliyevin diplomatik sahədəki istedadı Azərbaycanın dünya siyasi arenasında nüfuzunun ciddi şəkildə artmasına imkan verdi. Əlbəttə ki, bu ilin əsas hadisəsi - ölkənin ərazi bütövlüyünün bərpasından yan keçmək olmaz. Prezident İlham Əliyev ölkəsinə əcdadlarının şərəfini, şöhrətini və torpaqlarını qaytaran dövlət xadimi kimi tarixə düşdü. Ayrıca olaraq qeyd etmək istərdim ki, Azərbaycan Prezidenti Rusiya ilə qardaşlıq əlaqələrinin inkişafına və möhkəmlənməsinə böyük diqqət yetirir. Ölkələrimizin bütün sahələrdə strateji tərəfdaşlığı çox uğurludur və daha da parlaq perspektivlər vəd edir, çünki xalqlarımızı tarixən yalnız ümumi sərhədlər deyil, həm də dil və mədəniyyət bağlayır. Deputat Prezident İlham Əliyevə Azərbaycan xalqının rifahı naminə düşünülmüş hər şeyi həyata keçirmək və Rusiya ilə dostluğu möhkəmləndirmək üçün tükənməz enerji arzulayıb.

**Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı tarixi Qələbə ilə əlaqədar vətəndaşlarımız, xaricdə yaşayan soydaşlarımız, eləcə də qardaş Türkiyənin vətəndaşları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq məktubları ünvanlamaqda davam edirlər. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.**

# Prezidentə yazırlar: Siz hədəfləri dəqiq nişan alan sərkərdə və diplomat, xalqa can yandıran qayğıkeş dövlət başçısısınız!



## "Siz Azərbaycan xalqını birləşdirən dəyərsiniz, hər bir gənc üçün örnəksiniz"

ASAN könüllülərindən Prezidentə ünvanlanan məktubda deyilir: "Möhtərəm cənab Prezident, Müzəffər Ali Baş Komandan!

Bu gün biz gənc, amma müstəqil respublikanın vətəndaşlarıyıq. Bu gün biz fəxr edirik ki, nadir inkişaf modeli nümayiş etdirən, gənc olmasına baxmayaraq, heç bir təsir altında qalmadan beynəlxalq müstəvidə öz sözünü deməyə qadir olan, təcrübəsini bölüşən müasir, qüdrətli, müstəqil bir ölkənin vətəndaşlarıyıq.

Tarixən ölkəmizin, xalqımızın keçdiyi bütün keşməkeşli yollara, hadisələrə rəğmən dik, mübariz şəkildə dayanması, Vətən uğrunda, torpaqlarımız uğrunda bir saniyə belə düşünmədən canını verməyə hazır olması bugünkü gəncliyimizin də özəyində özünü büruzə verməkdədir.

ASAN könüllüləri olaraq fəaliyyətə başladığımız ilk gündən etibarən gənclərdə vətənpərvərlik ruhunun artırılması, onların hərbi vətənpərvərlik təlimlərinə cəlb olunması istiqamətində töhfə verməyə, hər zaman Vətən üçün könüllü şəkildə xidmət edəcək, milli-mənəvi dəyərlərimizə bağlı olan və Sizin görmək istədiyiniz gənclər yetişdirməyə çalışmışıq. Öz qəhrəmanlıqları ilə bizə ölkəmizin ərazi bütövlüyünü miras qoyub gedən şəhidlərimizin ailələrinin qayğısına qalmaq hər birimizin borcudur. Biz də üzərimizə düşən borcumuzu layiqincə yerinə yetirmək üçün böyük səylə çalışırıq.

Siz hər zaman bizim ən böyük dəstəkçimiz olmusunuz. Bu gün biz azad və müstəqil ölkədə, tam könüldən fəaliyyət göstəririksə, burada Sizin bizə olan qayğınız danılmazdır. Bu ilin "Könüllülər İli" elan edilməsi ilə Siz bizə və fəaliyyətimizə verdiyiniz dəyəri bir daha göstərdiniz. Könüllülər olaraq biz də öz növbəmizdə bundan stimul alaraq daha çox öyrəndik, faydalı işlər gördük, dayanmadan səylə çalışdıq.

Sizin 15 iyul 2020-ci il tarixindəki xalqa müraciətinizdən dərhal sonra on minlərlə gənc Vətəni qorumaq üçün könüllü olaraq ordu sıralarına yazıldı. Çünki Azərbaycan gənci milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə alır. ASAN könüllülərinin də bir qismi könüllü olaraq ön cəbhədə xidmətə yollandı, digər qismi arxa cəbhədə Vətənə xidməti davam etdirdilər.

Artıq uzun illərdir ki, düşmən tapdağı altında olan torpaqlarımız Sizin rəhbərliyinizlə müzəffər Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilmiş, düşmən təslim olmağa məcbur edilmiş və ərazi bütövlüyümüz təmin edilmişdir. Bu tarixi qələbə Ulu Öndərin əsasını qoyduğu, Sizin isə uğurla davam etdirdiyiniz daxili və xarici siyasətin gözlənilən nəticəsidir. Hər birimizin hədsiz sevincinə səbəb olan bu zəfəri başda Siz olmaqla bütün Azərbaycan Ordusuna borcluyuq. Bizə bu şanlı qələbəni bəxş etdiyiniz üçün Sizə öz minnətdarlığımızı bildiririk.

Bu gün daim dövlətçilik ənənələrinə sadiq, vətənpərvər ASAN könüllüləri Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmışların sırasında da var. Həmçinin şəhid olmuş qəhrəmanlarımızın övladları ASAN könüllülərinin sırasındadır. Sözsüz ki, onların hər biri dövlətin himayəsi altındadır. Biz böyük qürur hissi ilə deyə bilərik ki, onlarla fəxr edirik.

ASAN könüllüləri olaraq həmişə hər bir addımınızın dəstəkçisi olmaqdan şərəf duyuruq! Bütün fəaliyyətimiz dövründə olduğu kimi, bundan sonra da biz gənclərə həmişə inana, güvənə, arxalana bilərsiniz. Biz də bu inamı doğrultmaq üçün bundan sonra da bütün gücümüz və bacarığımızla Sizin sərəncamınızdayıq.

Vətən müharibəsi bir daha göstərdi ki, gənclər dövlətimizin, xalqımızın milli maraqlarını layiqincə qoruya bilirlər. Azərbaycan gənci Könüllülər ilini həqiqətən də tam könüldən yaşadı.

Bütün dünya Azərbaycan xalqının gücünü, birliyini Sizin dəmir yumruğunuz sayəsində gördü. Azərbaycan xalqı Sizinlə qürur duyur. Fəxrlə deyə bilərik ki, Siz hər bir gənc üçün örnəksiniz. Siz Azərbaycan xalqını birləşdirən dəyərsiniz. 8 noyabr 2020-ci il tarixi əbədi olaraq yaddaşımızda, tariximizdə Sizin adınızla qalacaq. Hər il bu günü xalqımız eyni sevinc, qürur hissi ilə Zəfər Günü olaraq qeyd edəcək.

Xoşbəxtik ki, biz öz torpaqlarımıza, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın incisi olan Şuşaya qayıdırıq. Sizi əmin etmək istəyirik ki, bundan sonra da işğaldan azad olunmuş bütün torpaqlarımızda könüllülük fəaliyyətinin yaradılması, təşviq edilməsi və gənclərimizin hərtərəfli inkişafı üçün var gücümüzlə çalışacağıq.

Könüllülərin könlü daim Sizinlədir! Qarabağ Azərbaycandır!".

## "Xalqımız və dövlətimiz yolunda göstərdiyiniz saysız xidmətlərə və uğurlara görə haqq olaraq xalqımızın qəhrəman oğlu adına layiqsiniz"

Sumqayıt şəhərindən Birinci Qarabağ müharibəsi veteranı Məmməd Şirinov yazır:

"Hörmətli cənab Prezident!

Siz xalqımızın ürəyində sağalmayan yaraya çevrilmiş Qarabağ həsrətinə, milli qürurumuzun dərdinə məlhəm qoyaraq onu çox qısa bir müddətdə, cəmi 44 gün ərzində sağaltdınız. Bunun üçün xalqımızın Sizə böyük təşəkkürü var.

Siz döyüş meydanında azğın düşmənin qarşınızda diz çökməsinə nail olmaqla bərabər, həm də bizə qarşı çevrilmiş dünya informasiya və diplomatiya xəyanətkarlarına elə bir tutarlı zərbə vurdunuz ki, o zərbənin dadı heç vaxt onların damağından getməyəcək. Bütün bunlara görə xalqımızı çox qürurlandırdınız. Allah Sizin qürurunuzu daha da çox etsin.

Sizin böyük rəhbərlik istedadınız nəticəsində 44 günlük müharibə zamanı xalqımızı dəmir yumruq kimi öz ətrafınızda birləşdirməyi bacardınız. Bu birlik tariximizdə görünməyən bir həmrəyliyin və xalqla birliyinin ən yüksək zirvəsi sayılmalıdır. Xalqımız və dövlətimiz yolunda göstərdiyiniz saysız xidmətlərə və uğurlara görə haqq olaraq xalqımızın Qəhrəman oğlu adına layiqsiniz.

Cənab Prezident, bundan sonrakı idarəçilik və quruculuq fəaliyyətinizdə Sizə yeni-yeni uğurlar arzulayıram. Allah Sizi qorusun!".

## "Siz dünya azərbaycanlılarının Milli Qəhrəmanısınız"

Tovuz sakini Rövşən Zeynalov:

"Hörmətli Prezident, cənab Ali Baş Komandan!

Uzaqgörən siyasətinizi, xalqımızın gələcəyi üçün gördüyünüz işləri bəyənir, qazandığınız zəfərlər münasibətilə Sizi ürəkdən təbrik edir, Sizə və ailənizə uzun ömür, möhkəm cansağlığı arzulayıram.

Siz dünya azərbaycanlılarının Milli Qəhrəmanısınız. Siz görkəmli siyasi və dövlət xadimi, ulu öndərimiz Heydər Əliyevin vəsiyyətini həyata keçirən qəhrəman oğlusunuz. Bütün dünya azərbaycanlıları Sizinlə fəxr edirlər. Mənim iki oğlum var, hər ikisi hazırda Sizin komandanlığınız altında hərbi xidmətdədir. Özüm isə zabit kimi Birinci Qarabağ müharibəsinin iştirakçısı olmuşam. Yenə də iki oğlumla çiyin-çiyinə Vətənə xidmət etməyə hazıram. Sizinlə fəxr edirəm, Sizi yüz yaşayasınız. Sizə bütün azərbaycanlıların adından "Vətənpərvər Milli Lider" və "Azərbaycanın Milli Qəhrəmanı" adlarının verilməsini arzulayıram".

## "Azərbaycan xalqı və bütün türk dünyası Sizinlə fəxr edir"

Abşeron rayonundan Banu Hacılı:

"Salam Müzəffər Ali Baş Komandan!

Mən 132-134 nömrəli məktəbin 6-cı sinif şagirdi Hacılı Banu Vahid qızı, Sizi ürəkdən təbrik edirəm. Siz Azərbaycan xalqının 27 illik həsrətinə son qoydunuz. Azərbaycan xalqı və bütün türk dünyası Sizinlə fəxr edir. Mən Qarabağ qazisinin qızıyam. Biz ailəliklə Sizi və Azərbaycanımızı sevirik. Tanrı Sizə və ailənizə yar olsun!".

## "Xalqın dərdini öz dərdi, xalqın kədərini öz kədəri bilən liderin sayəsində xalq-lider, millət-dövlət birliyi pozulmaz"

Bakıdan şəhid anası Sevinc İslamova yazır:

"Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan!

Bu gün Azərbaycanda hər kəsin qəlbinə bu cümlələr hakim kəsilib: 44 günlük haqq savaşı ilə ədaləti yerinə qoyan, "Qarabağ Azərbaycandır!" nidası ilə tarix yaradan Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyev, müzəffər Azərbaycan Ordusu, şəhidlərin al qanı, qazilərin qüdrəti ilə Azərbaycan bayrağını Şuşa qalasında dalğalandırdı! 30 ilin intizarına 44 gündə son qoyuldu! Qisas qiyamətə qalmadı!

Dostuna yazdığı son "Şəhid olmağa gedirəm, qardaş" mesajı ilə şəhidliyə qovuşan, yeganə oğlum Elvin İslamov Cəbrayıl və Füzuli istiqamətlərində gedən döyüşlərdə qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucalıb. Son döyüşü Füzuli rayonunun Qorqan kəndində olub. Oktyabrın 30-da Qaradağ rayonunun Qurd dərəsi məzarlığında torpağa tapşırılıb. Dünən onunla son vidadan 40 gün keçdi.

Bu 40 gündə bizi tək qoymayan, dərdimizə şərik çıxan hər kəsə təşəkkür edirəm. Hər gün qayğımızla maraqlanan, bizi ən doğma adamları kimi qəbul edən təsəlli, ümid yerimiz olan insanlara və Sizə minnətdarlıq edirəm.

Müzəffər Ali Baş Komandan!

Biz 44 günlük tarixi savaşla birliyimizi, bütövlüyümüzü sübut etdik. Bizə böyük zəfəri yaşatdığınız üçün Sizə təşəkkür edirəm. Nə qədər kədərli olsa da, qürur hissi keçirirəm. Bu tarixi qələbədə yeganə oğlum şəhid Elvin İslamovun payı olduğuna görə sevinirəm. Mən bir Qəhrəman anasıyam!

Bir şəhid ailəsi kimi kiçik bir diqqət, mənəvi dəstək bizə təsəlli olur. Ötən 40 gün içərisində Sizin tapşırığınız əsasında bizə göstərilən qayğı isə böyük dəstək idi. Xalqın dərdini öz dərdi, xalqın kədərini öz kədəri bilən liderin sayəsində Xalq-Lider, Millət-Dövlət birliyi pozulmaz! Xalqın dövlətə inamı, etibarı azalmaz!

Bir daha Sizə şəhid və qazi ailələrinə göstərdiyiniz diqqətə görə təşəkkür edirəm. Tanrı xalqımızı, dövlətimizi, Prezidentimizi qorusun! Bütün şəhid ailələrinə səbir versin!".

## "Müzəffər adınızı xalqımızın ürəyinə və tarixinə qızıl hərflərlə əbədi həkk etdiniz"

Xalq artisti Canəli Əkbərov:

"Hörmətli cənab Prezident!

Sizi çoxsaylı ailə üzvlərim və qohum-əqrəbam adından qazandığınız zəfərlər münasibətilə ürəkdən təbrik edir, Sizə uzun ömür, möhkəm cansağlığı, Vətənimizin xoşbəxt gələcəyi naminə gördüyünüz gərgin işlərdə daha böyük uğurlar arzulayıram.

Siz Ali Baş Komandan olaraq ulu öndərimiz Heydər Əliyevin vəsiyyətinə əməl edərək, bu il gözəl Qarabağı mənfur erməni işğalından azad etməklə müzəffər adınızı xalqımızın ürəyinə və tarixinə qızıl hərflərlə əbədi həkk etdiniz.

Qələbə paradında Sizin qardaş Türkiyə-

# Prezidentə yazırlar: Siz hədəfləri dəqiq nişan alan sərkərdə və diplomat, xalqa can yandıran qayğıkeş dövlət başçısısınız!

nin çox hörmətli Prezidenti Rəcəb Tayyib Ərdoğanla birgə iştirakınız bütün dünyaya Türkiyə-Azərbaycan qardaşlığının əyani sübutu idi. Bu taleyüklü tarixi günlərdə Siz və hörmətli Mehriban xanım Əliyeva həmişə xalqa arxa oldunuz, müharibə iştirakçılarına, qazilərə, şəhidlərimizə, imkansızlara, onların ailələrinə böyük qayğı, dəstək göstərdiniz. Mən özüm bir qocaman sənətkar kimi mənə göstərdiyiniz diqqət və qayğıya görə Sizdən həmişə razı olmuşam və Sizi hər zaman, hərtərəfli dəstəkləmişəm. Bir daha Sizi ürəkdən təbrik edir və ən xoş arzularımı bildirirəm. Azərbaycan xalqının xoş gələcəyi naminə Allah Sizi və ailənizi qorusun".

### "Azərbaycan tarixinə qızıl hərflərlə yazılan Zəfərimiz Sizin və yenilməz Ordumuzun birgə Qələbəsi oldu"

Beyləqan sakini Aytəkin Əliyeva:

"Cənab Müzəffər Ali Baş Komandan!

Otuz il işğal altında qalan torpaqlarımız uzaqgörən siyasətiniz nəticəsində mənfur düşməndən azad olundu. Azərbaycan tarixinə qızıl hərflərlə yazılan Zəfərimiz Sizin və yenilməz Ordumuzun birgə Qələbəsi oldu. Minlərlə Vətən övladı müqəddəs torpaqlarımızın geri qaytarılmasında igidlik göstərərək şəhidlik zirvəsinə ucaldı. Sizin vəd etdiyiniz kimi, üçrəngli bayrağımız Qarabağın hər bir bölgəsində qürurla dalğalandı.

Mən şəhid İlyas Nəsirovun həyat yoldaşı, Azərbaycan tarixi müəllimi kimi Sizə minnətdarlığımı bildirirəm. İlyas kimi minlərlə oğulların qanı yerdə qalmadı. Vətənpərvər azərbaycanlı kimi Sizin uğurlu siyasətiniz və uzaqgörən addımlarınızla fəxr edirik. Var olun. Tanrı Sizi qorusun. Siz bizim güvənimiz, qürur yerimizsiniz".

### "Siz Ulu Öndərimizin vəsiyyətini və xalqımızın ən böyük arzusunu həyata keçirdiniz"

Bakı şəhər sakini Pərvin Yaqubov:

"Hörmətli Prezident, cənab Ali Baş Komandan!

Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu və bizə əmanət etdiyi qüdrətli dövlətimiz Sizin uğurlu daxili və xarici siyasətiniz nəticəsində daha da güclənib və dünya dövlətləri sırasında böyük nüfuz sahibinə çevrilib. Torpaqlarımızın düşmən tapdağından azad olunması ilə Ulu Öndərimizin vəsiyyətini və xalqımızın ən böyük arzusunu həyata keçirdiyiniz üçün Sizə dərin minnətdarlığımı bildirirəm. Allahdan Sizə möhkəm cansağlığı və uzun ömür, Vətən yolunda canından keçərək şəhidlik zirvəsinə yüksələn əsgərlərimizə rəhmət, qazilərimizə şəfa diləyirəm. Hər zaman əmrinizdə və xidmətinizdəyəm, cənab Prezident".

### "Sizin qətiyyətiniz, nüfuzunuz və siyasi iradəniz sayəsində bütün dünya Azərbaycan dövlətinin gücünə, qüdrətinə, xalqımızın birliyinə bir daha inandı"

Xalq artisti Fərhad Bədəlbəyli:

"Əziz Prezidentimiz!

Sizin görkəmli dövlət xadimi, fateh sərkərdə kimi xalqımız qarşısında tarixi xidmətləriniz əvəzolunmazdır. Ulu öndərimiz Heydər Əliyevin ideyalarını həyata keçirərək, Siz daim dövlətin və xalqın rifahını düşünür, bütün həyatınızı və fəaliyyətinizi bu amala həsr edirsiniz. Bu, Sizin ən ali məqsədinizdir. Beynəlxalq miqyasda Azərbaycan həqiqətlərini dünyaya çatdıran, dövlətin iqtisadi maraqlarını təmin edən və dünyanın ən inkişaf etmiş ölkələri sırasında Azərbaycanı layaqətlə təmsil edən lider kimi Sizinlə qürur duyuruq. Siz beynəlxalq aləmdə dövlətimizin haqqının və hüququnun qarantına çevrilmisiniz.

Möhtərəm Ali Baş Komandanımız! Bu il Siz bizə Qarabağda böyük Qələbə sevincini yaşatdınız. Bu tarixi Qələbə məhz Sizin müdrik rəhbərliyiniz altında qazanıldı və Azərbaycanımız uzun illər davam edən işğaldan qurtuldu, ölkəmizin ərazi bütövlüyü bərpa edildi, neçə illik torpaq həsrətinə son qoyuldu, nə qədər insana ümid, xoş gələcək müjdəsi verdiniz. Bütün Azərbaycan xalqı üçün, bütün dünya Azərbaycanlıları üçün bu Zəfər günlərini yaşamaq neçə ömrə bərabərdir. Buna görə biz Ali Baş Komandanımız, Sizə və şanlı Ordumuza minnətdarıq.

Artıq dillər əzbəri olmuş "Şuşa bizimdir!", "Qarabağ Azərbaycandır!" şüarları uşaqdan böyüyədək hamımızın ürək döyüntümüzü əks etdirir. Azərbaycanın hər bir vətəndaşı üçün bunlar müqəddəs məfhumlardır. Sizin qətiyyətiniz, nüfuzunuz və siyasi iradəniz sayəsində bütün dünya Azərbaycan dövlətinin gücünə, qüdrətinə, xalqımızın birliyinə bir daha inandı.

Biz bütün qəlbimizlə hər addımınızda Sizi dəstəkləyirik və əminik ki, dilindən, dinindən, yaşından, istedadından, ad-sanından, məşğuliyyətindən asılı olmayaraq, bütün Azərbaycan vətəndaşları ömrümüzü Vətənimizə həsr etməyə hazırıq. Həqiqətən fəxr edirik ki, biz azərbaycanlıyıq, dünyaya günəş kimi doğmuş Azərbaycanın vətəndaşlarıyıq. Əziz Prezidentimiz! Sizi ad gününüz münasibətilə ürəkdən təbrik edir, Sizə uzun ömür, cansağlığı, Vətənimizin xoş gələcəyi və rifahı naminə bütün sahələrdə yüksək nailiyyətlər arzulayırıq. Biz Sizinlə fəxr edirik!".

### "Siz hədəfləri dəqiq nişan alan sərkərdə və diplomat, xalqa can yandıran qayğıkeş dövlət başçısısınız"

Naftalan şəhərindən İltifat Lütfizadə: "Möhtərəm Prezidentim cənab İlham Əliyev, tarix yazan sərkərdəmiz!

Tarixi və şanlı Qələbə münasibətilə Sizi və xalqımızı səmimi-qəlbdən təbrik edirəm. Bu xalqın, bu dövlətin Sizə hər zaman böyük ehtiyacı var. Çünki Siz hədəfləri dəqiq nişan alan sərkərdə və diplomat, xalqa can yandıran qayğıkeş dövlət başçısısınız.

Mən fəxr edirəm ki, qalib ölkənin vətəndaşıyam. Bütün Azərbaycan xalqı, o cümlədən naftalanlılar Tanrıya şükür edir ki, biz belə bir şərəfli tarixin şahidiyik. Tanrı Sizi qorusun müzəffər Ali Baş Komandan, Azərbaycanımızın xilaskarı, Milli Qəhrəmanımız!".

### "Azərbaycana bəxş etdiyiniz tarixi Qələbə xalqımızın milli ruhunu yenidən dirçəltdi"

Bakı sakini Cavad Axundzadə: "Müzəffər Ali Baş Komandan!

Görkəmli şair Əhməd Cavadın ailəsi adından Sizə dərin ehtiram və hörmətimizi bildirmək istəyirəm. İnanıram ki, Azərbaycan xalqına bəxş etdiyiniz tarixi qələbə və milli ruhun yenidən dirçəlməsi, ulu babamın ruhunu şad etmişdir.

Cənab Prezident, ulu babamın Azərbaycan Dövlət Himninin sözlərinin müəllifi olması bizi daim qürurlandırırdı. Zəfər paradında Əhməd Cavadın adının anılması bizi sonsuz bəxtiyar etdi. Bu Parad Azərbaycan və Türkiyə xalqlarının gücünün və etibarının təcəssümünə çevrildi. Qoy, Uca Tanrı Sizi və ailənizi qorusun!".

### "Öz siyasətiniz və dəsti-xəttinizlə sübut etdiniz ki, Siz müstəqil Prezident, güclü diplomat və yenilməz sərkərdəsiniz"

Cəlilabad rayonundan Əliheydər Əsədov, Rüstəm Nuriyev, Əlisafa Qafarov, Vətənxar Zeynalov, Nurlan Məmmədov və Elsevər Qiyasov yazırlar:

"Çox hörmətli möhtərəm cənab Prezident!

Dövlət, xalq və müzəffər ordu birliyinin parlaq, əsrarəngiz nailiyyəti olan Qələbə sevinci ilə yaşadığımız bu anlar bütövlükdə Azərbaycanımızın dövlətçilik tarixinə qızıl hərflərlə yazılan günlərdir. Öz siyasətiniz və dəsti-xəttinizlə dünya dövlətlərinə sübut etdiniz ki, Siz müstəqil Prezident, güclü diplomat və yenilməz sərkərdəsiniz.

27 il mənfur düşmən işğalında olan torpaqlarımızın 44 gündə azad olunması Ali Baş Komandan kimi Sizin qətiyyətinizin və şücaətinizin nəticəsidir. Ermənistanın siyasi rəhbərliyini dəstəkləyən, ona havadarlıq edən dövlət rəhbərlərinə verdiyiniz konkret və tutarlı cavablar onları susmağa və öz mənfur niyyətlərindən çəkinməyə məcbur etdi. Siz, eyni zamanda, sifarişli informasiya nəhəngləri ilə mübarizədə də öz qələbənizi təmin etdiniz.

Cənab Prezident, torpaqlarımızın işğaldan azad olunması müzəffər ordumuzun mükəmməl zəfər yürüşü sayəsində, xüsusən əsgər və zabitlərimizin canı, qanı bahasına başa gəlmişdir. Vətən müharibəsində rayonumuzun 90 övladı şəhidlik zirvəsinə ucalmışdır.

Dövlətçiliyimizin daha da möhkəmləndirilməsi üçün xüsusi əhəmiyyət kəsb edən kadr siyasətinin aparılması istiqamətində gördüyünüz işlər və həyata keçirdiyiniz təxirəsalınmaz tədbirlər təqdirəlayiqdir. Cəlilabadlılar Sizin mükəmməl fəaliyyətinizi bəyənir, dövlətçiliyimizin daha da möhkəmləndirilməsi istiqamətində gördüyünüz tədbirləri alqışlayır. Biz Sizinləyik, hər zaman Sizin arxanızdayıq! Tanrı Sizi Qorusun!".

### "Sizin əzminiz sayəsində terrora qalib gəldik, dost və qardaş ölkələri bir daha tanıdıq"

Türkiyənin İzmir şəhərindən Mülazim Paşa yazır: "Hörmətli Prezident, cənab Ali Baş Komandanı!

Mənim əslim İrəvan şəhərindəndir. Ailəmiz həmin şəhərdən Türkiyəyə mühacirət etmişdir. Sizi və şanlı Ordumuzu, cəsur xalqımızı Qarabağ zəfəri münasibətilə təbrik edirəm. Sizin Azərbaycana rəhbərliyiniz dövründə müstəqilliyimizin əmin əllərdə, Vətənimizin təhlükədən uzaqda olduğunu bilirik və xoş günlərin hələ qabaqda olduğuna əminik.

Qırx dörd günlük müharibədə şanlı Ordumuzla birlikdə Azərbaycan xalqının adını tarixə qızıl hərflərlə yazdınız. Azərbaycanın ərazi bütövlüyünü bərpa etdiniz, rəşadətli Ordumuzun qüdrətini dünyaya tanıtdınız. Siz, eyni zamanda, ulu öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirdiniz. Qətiyyətinizlə düşməni diz üstə çökdürüb məzlum vəziyyətə saldınız.

Televiziya vasitəsilə Sizdən şad xəbərləri aldıqca sevinir, xoşbəxt olurduq. Sizin və hörmətli Rəcəb Tayyib Ərdoğanın qardaşlığınız bütün dünya türklərini sevindirdi.

Amma Sizin əzminiz sayəsində bu terrora qalib gəldik, həm də dost və qardaş ölkələri bir daha tanıdıq, əlaqələrimiz daha dərinləşdi, daha da doğmalaşdı.

Sizə təşəkkür edir, sonsuz ehtiramımızı bildiririk. Yaşasın Azərbaycan-Türkiyə qardaşlığı! Yaşasın şanlı Ordumuz! Qarabağ Azərbaycandır! Sizə xidmət etməyə daim hazırıq".

### "Bu Qələbənin əsas gücü Sizdən bəhrələndi"

Rusiyanın Krasnoyarsk şəhərindən Rövşən Quliyev və Tərlan Əhmədova yazırlar: "Əziz Prezidentimiz, Azərbaycan xalqının xilaskarı, böyük sərkərdə və qəhrəman elimin qəhrəman oğlu!

Əvvəlcə icazə verin, Sizi bütün qələbələriniz münasibətilə səmimi-qəlbdən təbrik edək, Sizə bu qazandığınız Qələbə yolunda müvəffəqiyyətli işlər, hər şeydən əvvəl sağlam can, uzun ömür, rəşadət arzulayaq. Sizin kimi tarix yazan şəxsiyyətləri Ulu Tanrımız çox nadir hallarda yaradır. Siz elə bir şəxsiyyətsiniz ki, bütün maneələrlə təkbaşına vuruşur, xalq tərəfindən bu qədər sevir, xalq tərəfindən qiymətləndirilirsiniz. Siz xalqın hörmətini qazanan Prezidentimizsiniz. Xalq Sizə nə qədər inanırdısa, bu Qələbədən sonra xalqın inamı, məhəbbəti, sevgisi daha da artdı. Cənab Prezident, həqiqətən də bu Qələbənin əsas gücü Sizdən bəhrələndi!

Bu gün biz Rusiya Federasiyasında yaşamağımıza baxmayaraq, hər vaxt Azərbaycan televiziyası ilə öz doğma Vətənimizdə baş verən hadisələri izləyirik. Açığını desək, bu günlərə qədər yarımçıq yaşayırdıq, mənfur erməni millətinin nümayəndələri tərəfində ixtiyarsız məğlub baxaraq, qələbə ümidini qəlbimizdə yaradıb, daxilən içimizdə bir ümidlə bu günləri gözləyirdik. Artıq o günlər arxada qaldı. Bu günlərin şirinliyini, fəxarətini, sevincini Siz bizə yaşatdınız. 44 günlük müharibədə, doğma xalqımızla birgə uğurlara sevinmiş, mənfur düşmənlər tərəfindən mülki əhalimizə qarşı törədilən terror aktlarına, haqsızlıqlara millət olaraq birgə kədərlənmişik. Hər dəqiqə, hər an böyük ümidlə Sizdən şad xəbərlər gözlədik və nəticədə tarix yazan böyük Qələbəni elan etdiniz.

Əzizimiz, ümidimiz Ali Baş Komandan, şəxsən biz öz ömrümüzdən Sizə pay verməyə hazırıq. Hər bir azərbaycanlı Ulu Tanrıdan diləyir ki, Allah bizim ömrümüzdən bir gün kəsib Ali Baş Komandanımıza versin. Bu sözə bizim ixtiyarımız var, çünki Siz xalqı əsirlikdən qurtardınız. Şəxsən mən 1993-cü ildən atamın məzarın görə bilmirəm. Çünki bizim doğma kəndimiz olan Ağdam rayonunun Şurabad kəndi mənfur düşmənlərimizin əsarətində idi. Hər dərdə dözmək olar, ancaq ata məzarının əsirlikdə olması çox ağır idi. Artıq hər şey arxada qaldı. Bir daha Sizi bu Qələbə münasibətilə təbrik edirik.

Biz azadıq Sizinlə, biz qalibik Sizinlə, biz müzəffərik Sizinlə, biz xoşbəxtik Sizin Prezidentliyinizlə!".

# Zəfər yürüşünün bayraqdarı:

## qalibiyyət və humanizm rəmzi

***Azərbaycan tarixinin ən şərəfli, ən sevincli günlərini yaşayır. Artıq "Qarabağ münaqişəsi" deyilən bir termin tarixə qovuşub. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad edib, ərazi bütövlüyümüz təmin olunub. Müstəqilliyimizin ilk illəri xalqımız üçün çox ağır illər oldu, itkilər verdik, məhrumiyyətlər yaşadıq, dərd-qəm çəkdik, harayımızı dünya eşitmədi.***




Doğru olan yolu isə bizə 1993-cü ilin iyunun 15-də yenidən ölkə rəhbərliyinə qayıtmaqla dövlətçiliyimizi xilas edən Ümummilli lider Heydər Əliyev göstərdi və inandırdı ki, uğurumuz bir yerdə yumruq kimi birləşərək güclü dövlət qurmaqdan, qüdrətli ordu yaratmaqdan keçir. Xalq ona inanırdı, çünki öz Liderini çox yaxşı tanıyırdı, ona görə də dara düşəndə Xilaskar kimi onu çağırdı, o gəldi, dövləti dağılmaqdan, milləti məhv olmaqdan qorudu. Eynən mahir bağbanın qasırğadan qəddi sınmış fidan tingini sarıyıb təzədən bitişdirib böyüdən kimi böyütdü milləti Böyük Xilaskar. Sonra tamamlayıb başa çatdıra bilmədiyi işləri özü kimi inandığı varisinə - cənab İlham Əliyevə həvalə etdi.

Prezident İlham Əliyev 2003- cü ildə prezident kimi ilk andiçmə mərasimində bütün dünyaya bəyan etdi: Bizim yolumuz Heydər Əliyev yoludur! Bu yol bizi işıqlı, xoşbəxt, firavan günlərə aparacaq.

17 ildir cənab Prezidentin müəyyən etdiyi kursla uğura doğru, işığa doğru, haqqa doğru gedirik.

Bu yolda qarşımıza nələr çıxmadı, hansı maneələri dəf etmədik, hansı aysberqləri adlamadıq? Biz bütün maneələri adlayaraq bir xalq kimi daha da mətinləşdik, bütövləşdik, bərkidik, böyüdük!

Biz bu illər ərzində başqa xalqların bəlkə də 100 illərlə keçə bilmədiyi yenilənmə, tərəqqi, özünüdərk, milli-psixoloji transformasiya yolu keçdik.

Bizi bu yolda qətiyyətlə, mətin addımlarla inamlı qələbələrə aparan cənab Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında müasir dövlət qurduq, özümüzü dünyaya sübut erdik, güclü, modern ordu yaratdıq, BMT Təhlükəsizlik Şurasının iclaslarına sədrlik elədik, kosmik klubun üzvü olduq, Avroviziya mahnı müsabiqəsinin qalibi olduq, Avropa Oyunlarına, İslam oyunlarına, onlarla beynəlxalq iqtisadi, siyasi, humanitar tədbirə ev sahibliyi etdik, uğur qazandıq, uğurumuzu bölüşdük.

Bu illər ərzində milli-psixoloji transformasiyamızda heç şübhəsiz ki, Birinci vitse-prezidentimiz hörmətli Mehriban xanım Əliyevanın böyük xidmətləri mütləq qeyd olunmalıdır. Məhz hörmətli Mehriban xanım müstəqil Azərbaycan dövlətində Birinci xanım institutunu formalaşdırdı və mühüm dövlətçilik atributuna çevirdi.

Mehriban xanım Əliyevanın yaratdığı və rəhbərlik etdiyi Heydər Əliyev Fondu təkcə Azərbaycanda deyil, eləcə də ölkə hüdudlarından kənarda humanizm, xeyirxahlıq, şəfqət, sosial dəstək ünvanına çevrildi.

Ulu öndər Heydər Əliyev böyük uzaqgörənliklə deyirdi ki, mənim görüb başa çatdırmadığım işləri Azərbaycan xalqının dəstəyi ilə İlham Əliyev başa çatdıracaq. Ulu öndərin arzusunda olduğu, lakin başa çatdıra bilmədiyi ən birinci vəzifə isə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, torpaqlarımızın işğaldan azad edilməsi idi.

Həmin dövrdə Ermənistan rəhbərliyinin təkəbbürlü nadanlığı, beynəlxalq güclərin ikiüzlülüyü, imperialist dövlətlərin Qafqazda maraqlarının toqquşması Qarabağ məsələsinin diplomatik yolla həllinə imkan vermədi.Müharibə yolu ilə məsələnin həlli üçün qüdrətli dövlət, güclü iqtisadiyyat və qalibiyyətli ordu yaratmaq, beynəlxalq ictimaiyyətin nüfuzunu və dəstəyini qazanmaq üçün uzun zaman, məqsədyönlü fəaliyyət, dəqiq proqram, böyük siyasi iradə, gərgin zəhmət lazım idi.

Tanrı bu şərəfli missiyanı Ali Baş Komandan İlham Əliyevin qismətinə yazmışdı. Cənab İlham Əliyev öz xalqı ilə birlikdə bu işi bacardı və müasir bütöv Azərbaycan dövlətinin qurucusu, torpaqları işğaldan azad edən və ərazi bütövlüyünü təmin edən sərkərdə kimi öz şərəfli adını qızıl hərflərlə tarixə yazdırdı.

Yəqin ki, tədqiqatçılar Azərbaycanın 44 günlük zəfər yürüşü fenomeninin müxtəlif aspektlərini araşdıracaq, nəticələr çıxaracaq, nümunə kimi göstərəcəklər. Lakin indidən bir həqiqət gün kimi aydındır: Qələbənin uğur formulu çox sadədir: müzəffər Komandan+ müzəffər Ordu+ müzəffər Xalq. Qələbənin uğur simvolu isə heç şübhəsiz ki, Dəmir Yumruqdur - xalq, ordu, rəhbər birliyini əks etdirən və düşmənin başını ilan başı kimi əzən Dəmir Yumruq!

### Azərbaycanın tarixi qələbəsinin şəksiz və şəriksiz qəhrəmanı isə cənab Ali Baş Komandandır!

Cənab Prezident bu 44 gündə həm hərbi, həm siyasi, həm diplomatik, həm informasiya, həm təbliğat cəbhəsində mübarizə apardı, öz dövlətinin və xalqının maraqlarını ləyaqətlə qorudu və təmin etdi. Həmişə də inamlı danışdı, cəsarətli danışdı, bir dəfə də olsun təmkinini pozmadı, yüksək intellekt, dərin bilik və diplomatik peşəkarlıq nümayiş etdirdi. Azərbaycanı bir daha dünyaya tanıtdı, hər kəsə də öz yerini göstərdi.

Cənab Prezidentin qələbə müjdəli çıxışları xalqı və ordunu ruhlandırdı, inamını artırdı, birliyini möhkəmləndirdi.

Cənab Ali Baş Komandan oktyabrın 4-də Cəbrayılın işğaldan azad edilməsi müjdəsini böyük sevinc və qürur hissi ilə xalqına çatdırdı, bundan sonra isə Zəngilan, Qubadlı, Füzuli rayonları, Suqovuşan və Horadiz qəsəbələri və digər yurdlarımız işğaldan azad edildi.

Heç şübhəsiz ki, Şuşanın işğaldan azad edilməsi düşmənin belini qırdı və məğlub ölkənin rəzil olmuş rəhbəri təslim aktını imzalamağa vadar oldu.

"Qarabağ münaqişəsi" deyilən bir termin tarixə qovuşdu, regionda davamlı sülhün bərqərar olunması üçün münbit şərait yarandı.Üç böyük rayonumuz - Ağdam, Kəlbəcər və Laçın bir güllə atılmadan işğaldan azad olundu. Bu, tarixdə nadir hallarda rast gəlinən hərbi-siyasi qələbədir!

İndi artıq bölgədə yeni dönəm başlamışdır. Bu, reallığı Azərbaycan yaratdı, Prezident İlham Əliyev və onun Xalqı yaratdı.

### Xalqı birləşdirən əsas dəyər: sosial ədalət

Müasir Azərbaycan dövlətinin müstəqillik tarixinin yarıdan çoxu cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə bağlıdır. Müstəqil dövlətçiliyimizin memarı və qurucusu ümummilli lider Heydər Əliyevin siyasi idarəçilik məktəbinin layiqli davamçısı olan cənab İlham Əliyev 2003- cü ilin oktyabrında keçirilən ilk prezidentlik inauqurasiyasında "mən hər bir azərbaycanlının prezidenti olacağam", - deyə bəyan etdi və arxasında böyük məna və məsuliyyət yükü olan bu fikirləri öz prezidentlik fəaliyyətində daim təsdiq etdi, əmələ çevirdi və dövlət idarəçiliyində bir meyar səviyyəsinə yüksəltdi.

Təbii ki, hər bir yaxşı rəhbər kimi, cənab İlham Əliyev də prezidenti olduğu hər bir vətəndaşın və bütövlükdə Azərbaycan xalqının əminamanlıq şəraitində, güvənli maddi təminat və sosial rifah içərisində yaşamağını istəyir və bu istəyi reallığa çevirmək üçün ən mütərəqqi proqramlar qəbul etmiş, ən mütərəqqi qərarlar, fərman və sərəncamlar vermiş, qanunlar imzalamışdır.

### *__Prezident İlham Əliyevin sosial siyasəti iki klassik prinsipə əsaslanır:__* sosial ədalət və sosial rifah!

Sosial ədalət hər bir cəmiyyətin demokratikliyinin lakmus kağızıdır, sosial ədalət pozulanda cəmiyyətin digər dəyərləri də deformasiya olunur, fərdlər və qruplararası gərginlik daim münaqişə ocağına çevirilir. Sosial ədalətin çərçivəsi cəmiyyətin tələblərinə uyğun dəyişir və təkcə qanunlar və proqramlarla deyil, eyni zamanda mənəvi dəyərlər, ənənələr, liderin humanizmi və şəxsi nümunəsi ilə təmin olunur.

Sosial ədalət müəllifi ümummilli lider Heydər Əliyev olan Konstitusiyamızda da əsas prinsiplərdən biri kimi təsbit edilmişdir.

Sosial ədalət ölkənin maddi və mədəni sərvətlərinə bütün vətəndaşların əlçatanlığını təmin etmək siyasətidir. Elə bir siyasət ki, imkansıza, gücsüzə, köməyə ehtiyacı olana dövlət dəstək verir, eyni zamanda cəmiyyəti də bu xoş məramа təşviq edir. Azərbaycan sosial dövlət olaraq bütün vətəndaşların sosial müdafiəsini təmin etməyi öhdəlik kimi öz üzərinə götürmüşdür.

Bununla yanaşı, xüsusi sosial müdafiəyə ehtiyacı olan qruplar var ki, müxtəlif qanunlar və proqramlar vasitəsi ilə onlara daim dəstək verilir. Bizim qanunvericilik yaşayış minimumu, ehtiyac meyarı, minumum əməkhaqqı, minimum pensiya kimi hədlər müəyyən eləmişdir ki, vətəndaşımızın yaşam şərtləri o həddən aşağı səviyyəyə enməsin.

Sosial dövlət vətəndaşlara uyğun şərtlərlə sağlamlıq, təhsil, məşğulluq imkanları yaratmaqla, müəyyən proqramlarla ehtiyacı daha çox olan təbəqənin bu imkanlara əlçatanlığını dəstəkləməklə sosial ədaləti təmin etmiş olur.

Cənab Prezident İlham Əliyev 2003-cü ildə öz seçki proqramında qarşıdakı beş il ərzində 600 min yeni iş yeri açılmasını təmin edəcəyini bildirəndə bu cəsarətli çağırış çoxları üçün fantastik bir arzu kimi göründü. Çünki o zaman ölkədə işsizlik 50 faiz, yoxsulluq 49 faiz təşkil edirdi.

Ən ədalətli hakim olan zaman göstərdi ki, cənab İlham Əliyev nəinki uzaqgörən və praqmatik bir siyasətçidir, o eyni zamanda müdrik və realist bir dövlət xadimidir. Cənab İlham Əliyev 600 min yeni iş yeri açacağıq söyləyəndə həm də 600 min ailənin həyat səviyyəsinin yüksələcəyini düşünürdü. Beş il ərzində ölkədə vəd olunan 600 min iş yeri əvəzində 900 min yeni iş yeri açıldı ki, bunun da 700 mini daimi iş yerləri idi.

Əhalinin məşğulluğunun təminatı sonrakı illərdə də dövlət başçısının diqqət mərkəzibdə oldu və bu illər ərzində ölkədə 1 milyon 800 mini daimi olmaqla 2 milyondan çox yeni iş yeri açıldı. İşsizlik on dəfə aşağı düşdü. İndi Azərbaycanda işsizlik 2003- cü illə müqayisədə 10 dəfə azalaraq 4,9 faiz təşkil edir və ölkəmiz işsizlik göstəricisinə görə dünyada ən öndə gedən ölkələrdən biridir. İndi Azərbaycan vətəndaşları iş yeri axtararkən daha geniş seçim imkanları əldə etmişlər.

2003- cü ildən bu yana ölkədə minimum əməkhaqqı 10 dəfədən çox artmış, 2019-cu ildən isə minimum əməkhaqqı 250 manat olmaqla yaşayış minimumunu (190 manat) 31,5 faiz üstələmişdir.

Prezident İlham Əliyevin sosial siyasət kursunun çox mühüm istiqamətlərindən biri aztəminatlı insanların sosial müdafiəsinin daim diqqət mərkəzində saxlanılmasıdır. Pensiyalar, müavinətlər, təqaüdlər və digər sosial ödənişlər ilbəil artırılır, ünvanlı sosial yardım və özünü məşğulluq proqramları daha çox ehtiyacı olan ailələri əhatə edir, sosial evlər tikilir, ipoteka kreditləri verilir, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri, məcburi köçkünlər daha geniş şəkildə dövlətin qayğısı ilə əhatə olunurlar.

2008-ci ildə cənab Prezident İlham Əliyev daha bir cəsarətli və humanist təşəbbüslə çıxış etdi: "Qarşıdakı beş il ərzində Azərbaycanda bir dənə də olsun çadır şəhərciyi qalmayacaq, bir nəfər də məcburi köçkün vaqonlarda, yeraltı qazmalarda yaşamayacaq!"

Yenə şübhələr, tərəddüdlər oldu; yüz minlərlə insanın məskunlaşması üçün milyonlarla kvadratmetr mənzil tikilməlidir, onlarla şəhər, qəsəbə salınmalıdır, milyardlarla manat vəsait xərclənməlidir. Lakin zaman yenə də göstərdi ki, cənab Prezidentin bütün qərarları kimi, bu qərarı da ölçülüb biçilmiş, zamanında verilən düzgün qərardır. Növbəti illərdə nəinki çadır şəhərcikləri tarixə qovuşdu, yüzlərlə qəsəbələr salındı, yüz minlərlə qaçqın və məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdı, məşğulluğu təmin edildi, biz Qarabağın qayıdış simvolu olan Cocuq Mərcanlını bərpa edib orada həyata yeni nəfəs verdik.

Cənab Prezidentin məcburi köçkünlərə qayğısı təkcə bir rəhbər məsuliyyətindən doğan qayğı deyil, eyni zamanda yüksək mənəviyyatlı insana və vətəndaşa məxsus humanistlik hissindən qaynaqlanır.

Hər kəsə məlumdur ki, dövlətimizin başçısı sadə həyat tərzinə üstünlük verir, təm-təraqı sevmir, daim məmurları da sadə və təvazökar olmağa çağırır. Özününün əli illik yubileyini ailə üzvləri, şəxsi dostları, yaxınları ilə deyil Taxtakörpü qəsəbəsində məskunlaşan məcburi köçkünlərlə birlikdə qeyd etməsi həm Prezident İlham Əliyevin humanizminin və qayğıkeşliyinin ifadəsi idi, həm də cəmiyyətə bir mesaj idi. Cəmiyyət də, dost da, düşmən də bir daha gördü ki, Azərbaycan Prezidentinin ən yaxın dostları elə Azərbaycanın ən sadə vətəndaşlarıdır. Bu ənənə indi də davam edir, cənab Prezident ad günlərində, bayramlarda, əlamətdar günlərdə sosial müdafiəyə ehtiyacı olan insanlarla birlikdə olur, onlara mənzillər, minik avtomobilləri hədiyyə edir, parklar, körpülər, yollar açır, müəssisələri, yeni iş yerlərini işə salır.

*Ardı Səh. 11*

Əvvəli Səh. 10

# Zəfər yürüşünün bayraqdarı:

## qalibiyyət və humanizm rəmzi

Neft gəlirlərini insan kapitalına çevirmək! Bu da cənab Prezident İlham Əliyevin irəli sürdüyü və uğurla həyata keçirdiyi onlarla tarixi ideyadan biridir!

Alimlər ölkələrin inkişafının əsasında digər faktorlarla yanaşı, 3 mənbənin olmasını vacib hesab edirlər: zəngin təbii sərvətlər, o cümlədən karbohidrogen ehtiyatlarının olması, müasir texnologiyalara malik olmaq və onların istehsalında öncüllük, dərin elmi potensiala malik insan kapitalının olması.

Bunlardan biri gec- tez tükənən, digəri isə köhnələn sərvətdir. İnsan kapitalı isə tükənmir, köhnəlmir, əksinə, münbit şəraitdə daha da inkişaf edir. İkinci dünya müharibəsindən sonra Yaponiyanın, iyirminci əsrin sonlarından isə, Cənubi Koreyanın, Sinqapurun inkişafı məhz insan kapitalı, süni intellektlə bağlıdır.

Müstəqilliyinin ilk illərində torpaqları işğal olunan, iqtisadiyyatı çökən, bir milyona yaxın qaçqın və məcburi köçkünü olan, sovet dövründən qalma təhsil sistemi süqut edən, onsuz da zəif olan maddi texniki bazası köhnələn təhsil və elm sahəsini gücləndirmək, köhnəlmiş zərərli stereotipləri qırmaq, yeni kadrlar hazırlamaq milyardlarla manat vəsait, gərgin əmək, güclü siyasi iradə tələb edirdi, lakin cənab Prezident qısa vaxt ərzində bunu da bacardı. Təhsil sisteminin modernləşdirilməsi siyasəti ilə yanaşı olaraq təhsilin maddi- texniki bazası demək olar ki, yenidən quruldu, 3500-dən çox məktəb və uşaq bağçası yenidən tikildi, müasir avadanlıqla təchiz edildi, yeni kolleclər, universtetlər yaradıldı, xaricdə təhsil proqramı qəbul edildi, 5 mindən çox azərbaycanlı gənc bu proqram vasitəsi ilə dövlət vəsaiti hesabına dünyanın tanınmış universitetlərində təhsil aldılar. İndi o gənclərin bir qismi Vətənə dönərək Azərbaycan dövlətinin idarə olunmasında yaxından iştirak edir, xaricdə qalanlar isə diaspor təşkilatımızı gücləndirərək Azərbaycanı dünyada ləyaqətlə təmsil edirlər.

İnsan həyatının keyfiyyətli və faydalı olması üçün vacib şərtlərdən biri, bəlkə də birincisi sağlamlıqdır. Heç təsadüfi deyildir ki, bütün dünyada sağlam yaşamaq hüququ insanın ən fundamental hüquqlarından biri kimi tanınır. Azərbaycan vətəndaşının sağlam və xoşbəxt yaşamasının təmin olunması, tibbi xidmətin keyfiyyəti və bu xidmətlərə pasiyentlərin əlçatanlığı cənab Prezident İlham Əliyevin daim diqqətdə saxladığı məsələlərdən biridir.

Ölkə başçımız vətəndaşların sağlamlığının hər iki istiqaməti - tibbi profilaktika və tibbi yardım üzrə tədbirlərə ciddi önəm verir. Qədimdən məlum olan bir deyim bu gün də aktualdır: sağlamlığı qorumaq onu itirdikdən sonra bərpa etməkdən daha asan və daha ucuz başa gəlir. Məhz bu baxımdan xəstəliklərin qarşısının alınması üçün idman sağlamlıq tədbirlərinin ekoloji çirklənməmiş hava, su, qida təminatı hər bir ölkə üçün önəmlidir. Azərbaycan Prezidenti gənc nəslin sağlam və güclü vətəndaş kimi böyüməsi üçün məmləkətin bütün bölgələrində Olimpiya İdman Komplekslərinin, üzgüçülük hovuzlarının, stadionların tikilməsini təmin edən proqramlar qəbul etmiş, gənclərin inkişaf mərkəzlərinin tikilməsi, parkların, istirahət zonalarının açılması üçün sərəncamlar imzalamışdır. Ölkə vətəndaşlarının davamlı və keyfiyyətli su təchizatının həyata keçirilməsi üçün görülən tədbirlərin, qida , ərzaq məhsullarının bolluğu və təhlükəsizliyi istiqamətində aparılan işlərin iqtisadi əhəmiyyəti ilə yanaşı, tibbi-sağlamlıq baxımından da faydalı olduğu hər kəsə aydındır.

Vətəndaşlara göstərilən tibbi xidmətin keyfiyyəti və əlçatan olması da cənab Prezidentin sosial siyasətində həmişə aktual olmuşdur. Dövlət büdcəsinin vəsaiti ilə 700- dən artıq xəstəxana və poliklinika əsaslı təmir edilib, ən müasir avadanlıqla təchiz edilmiş, onlarla yeni klinikalar açılmışdır.

Maddi- texniki bazanın yenilənməsi ilə yanaşı, səhiyyənin idarə edilməsi və kadr təminatı sahəsində də dərin islahatlar aparılmışdır. Xarici ölkələrin qabaqcıl tibb təcrübəsinin ölkəmizə gətirilməsində Türkiyə, Almaniya və digər ölkələrin universitetlərində təhsil almış, klinikalarında təcrübə qazanmış həkimlərimizin böyük xidməti vardır. Bu yeni nəsil tibb kadrlarının yetişməsi də cənab Prezident İlham Əliyevin səhiyyə siyasətinin mühüm tərkib hissəsidir.

Azərbaycan Tibb Universitetində tibbi rezidentura pilləsinin yaranması, Naxçıvan Dövlət Universitetinin tibb fakültəsinin uğurlu fəaliyyəti, Seçenov adına Moskva Tibb İnstitutunun Bakı filialının açılması müasir biliklərə malik tibb kadrlarının hazırlanmasında xüsusi mərhələ kimi əhəmiyyətlidir.

Cənab Prezident İlham Əliyev vətəndaşların tibbi maariflənməsinə, profilaktik dispanser müayinələrə cəlb olunmasına həmişə qayğı ilə yanaşır, rayonlara səfərlərində əhali ilə görüşlərdə hər kəsi ildə azı iki dəfə tibbi müayinələrdən keçməyə dəvət etməsi, dövlət vəsaiti hesabına hər il beş milyondan çox vətəndaşın icbari dispanserizasiyaya cəlb olunmasına təminat yaratması məhz vətəndaşın sağlamlığına rəhbər qayğısının ifadəsidir.

Tibbi xidmətlərə əlçatanlığın təmin olunması, tibbi xidmətlərin vaxtında və keyfiyyətli göstərilməsi üçün səhiyyə idarəçiliyinin ən optimal forması sayılan icbari tibbi sığorta sisteminə keçid Prezident İlham Əliyevin sosial sahədə apardığı ən fundamental islahatlardan biridir. İcbari tibbi sığorta səhiyyə xidmətlərinin keyfiyyətini artırmaq, sağlam rəqabət mühiti yaratmaqla yanaşı, maliyyələşdirmə xərclərini də dövlət, işəgötürən və işləyən arasında paylaşmaqla daha mütənasib ödəmə sistemi təklif edir.

Təbii ki, səhiyyə sistemini uzun illər ərzində formalaşan sovet maliyyələşmə və idarəçilik üsulundan birdən qoparıb yeni sistemə keçirmək mümkün deyildi. İcbari tibbi sığortanın qüsursuz və mükəmməl çalışması üçün vacib olan şərtlər həll olunmasa, ən mükəmməl bir sistem də iflasa uğraya bilərdi. Məhz hər hansı qərara kompleks yanaşan və qərar qəbulu zamanı bütün amilləri öncədən nəzərə alan cənab Prezident İlham Əliyev ilkin olaraq icbari tibbi sığorta sistemində fəaliyyət göstərən klinikaların müasir tələblər səviyyəsində qurulması və təchiz edilməsini həyata keçirdi: həm dövlət, həm də özəl sektorda onlarla yüksək təchizatlı və tibbisanitar standartlara cavab verən klinikalar yaradıldı, müasir tibbi texnologiyanı yaxşı mənimsəyən həkim və orta tibb işçiləri yetişdi, tibbi heyətlər formalaşdı, respublika üzrə minimum və orta əməkhaqqı yüksəldi, qeyri-leqal məşğulluğun aradan qaldırılması üçün iqtisadi və hüquqi nəzarət mexanizmləri formalaşdı. İcbari tibbi sığorta 3 il ərzində pilot şəklində Mingəçevir, Yevlax və Ağdaş şəhərlərində uğurla sınaqdan çıxandan sonra bu sistemin 2020- ci ildə bütün ölkə ərazisində tətbiq olunmasına başlanıldı. Qrafik üzrə birinci rübdə şimal bölgəsini əhatə edən 20 rayonda icbari tibbi sığorta fəaliyyətə başladı. Təəssüf ki, koronavirus pandemiyasının aradan qaldırılması üçün səhiyyə sisteminin və TƏBİB-in bütün resurslarının bu bəla ilə mübarizəyə səfərbər olunması İTS- nin bütün ölkədə tətbiqini ləngitdi. Heç şübhəsiz ki, koronavirus problemi həll edilsəndən sonra icbari tibbi sığortanın tətbiqi ilə bağlı işlər tamamlanacaq, daha da təkmilləşəcək və yaxın vaxtlarda Azərbaycanda nümunəvi bir səhiyyə sisteminin və tibb xidmətinin yaranmasının şahidi olacağıq.

### Biz birlikdə güclüyük

Yola salmaqda olduğumuz 2020-ci il bəşər tarixində yeni bir bəla - koronavirus pandemiyası ilə mübarizə ili kimi qalacaqdır. Heç kəsin gözləmədiyi bir zamanda meydana çıxan və bütün Yer kürəsini cənginə alan bu dəhşətli virus epidemiyası həm də dövlətlərin idarəçilik sistemini və liderlərin siyasi iradəsini sınağa çəkmiş oldu.

"Hər zərərin içində bir xeyir var", deyiblər. Koronavirus pandemiyası bir tərəfdən iqtisadiyyatımıza zərər vurdusa da, sosial ictimai həyatımıza məhdudiyyətlər gətirsə də, digər tərəfdən dövlət idarəçiliyinin çevikliyinin və operativliyinin, səhiyyə və sosial müdafiə sistemimizin səviyyəsinin indikatoru oldu. Cənab Prezidentin rəhbərliyi altında görülən kompleks tədbirlər sayəsində qısa müddətdə pandemiyanı nəzarət altına ala bildik.

Geridə qoyduğumuz dövrü dünyadakı vəziyyətlə müqayisəli şəkildə qiymətləndirərək deyə bilərik ki, Azərbaycan koronavirus pandemiyası ilə mübarizədə, ən az itki vermiş, ən uğurlu nəticələr əldə etmiş ölkələr sırasındadır.

Pandemiyanın dünyada tüğyan etdiyi ağır günlərdə Prezident İlham Əliyev öz xalqının əsil xilaskarı kimi mübarizənin önünə çıxdı, bir rəhbər müdrikliyi ilə, bir sərkərdə cəsarəti ilə, bir lider qətiyyəti ilə bütün resursları bir məqsədə yönəldərək, kompleks mübarizə tədbirlərinin həyata keçirilməsini təşkil etdi.

Cəmi 2 həftə ərzində ölkəyə 20 - dən artıq test- laboratoriya gətirildi, tibbi maska, qoruyucu kombinezon, dezinfeksiya vasitələrinin istehsalı müəssisələri quruldu. 46 xəstəxana koronavirusla mübarizə üçün səfərbər olunmuş, 12 yeni modul tipli xəstəxananın tikintisinə vəsait ayrılmış, 2 milyon 400 minə yaxın insanda test analizi aparılmışdır. Vətəndaşların sağlamlığı, sosial müdafiəsi, iqtisadiyyatın qorunması məqsədi ilə büdcədən 3,5 milyard manata yaxın vəsait ayrılmış, Koronavirusla Mübarizəyə Dəstək Fonduna 110 milyon manatdan çox vəsait toplanmışdır.

Həmişə olduğu kimi bu proseslərdə də cənab Prezident İlham Əliyev və 1- ci vitse- prezident Mehriban xanım Əliyeva xoşməramlı təşəbbüslərlə çıxış edərək xalqa əsil vətəndaş nümunəsi göstərdilər.

Azərbaycan həkimlərinin koronavirusla mübarizədə göstərdiyi fədakarlıq dövlət rəhbərlərimiz tərəfindən layiqincə qiymətləndirilmişdir. Cənab Prezident İlham Əliyevin fərmanı ilə onların əmək haqları 3-5 dəfə artırılmış, dövlət başçısı, ölkənin 1- ci vitse- prezidenti, millət vəkilləri dəfələrlə tibb işçilərimizi ayaq üstə alqışlamışlar.

Koronavirusla mübarizə dövründə bir çox ölkələrin rəhbərləri " öncə iqtisadiyyat, yoxsa əhalinin sağlamlığı" dilemması qarşısında qaldığı halda, Azərbaycan xalqının lideri cənab İlham Əliyev birmənalı və qəti şəkildə bəyan etdi: "Mənim üçün birinci əhalinin sağlamlığıdır!"

Bu mövqe öz xalqını ürəkdən sevən ona bağlı olan, onun qayğıları ilə yaşayan əsil liderin və rəhbərin mövqeyi idi. Koronavirusla mübarizədə cənab Prezidentin beynəlxalq miqyasda səyləri və töhfələri onun bir dünya lideri kimi rolunun və nüfuzunun yeni təntənəsi oldu. Azərbaycan güclü və humanizm prinsipləri ilə yaşayan bir dövlət olduğunu növbəti dəfə nümayiş etdirərək, koronavirusla mübarizə üçün Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar vəsait köçürdü, 30-dan çox ölkəyə humanitar yardım göstərdi.

Məhz Prezident İlham Əliyevin təşəbbüsü və sədrliyi ilə keçirilən iki beynəlxalq konfrans - Türk Şurası dövlətlərinin və Qoşulmama Hərakatının Təmas Qrupunun zirvə toplantıları dünyada ilk dəfə COVİD-19-la mübarizədə beynəlxalq çağırışlarla yadda qaldı.

Məhz Azərbaycan xalqının Liderinin təşəbbüsü ilə bu ilin dekabr ayının 3-4-də BMT-nin koranavirus pandemiyası ilə mübarizəyə həsr olunmuş xüsusi sessiyası keçirildi.

Koronavirusla mübarizənin gərgin və məsuliyyətli günlərində Prezident İlham Əliyevin irəli sürdüyü "Biz Birlikdə Güclüyük!" tezisi xalqımız tərəfindən birmənalı dəstəkləndi, həyat tərzinə, mübarizə, inkişaf və tərəqqi kredosuna çevrildi.

Bəli, biz birlikdə güclüyük! Zaqatala və Şamaxı zəlzələlərində də, Kür-Araz daşqınlarında da, 2016-cı ilin aprel qələbəsində də, Avropa Oyunları və İslam Olimpiadasının təşkilində də, Valday, Aşqabad, Münxen uğurlarında da, Qarabağda Zəfər yürüşündə də!

Biz birlikdə çox uğurlara imza atmışıq, çox çətinlikləri dəf etmişik, bütün sınaqlardan şərəflə, üzüağ çıxmışıq. Birliyimiz sayəsində koronavirus epidemiyasını da aradan qaldıracağıq. Bu mübarizədən qələbə ilə ayrılacağıq.

### Yaşatmaq da yaratmaq qədər savabdır

Yaratmaq Tanrının işidir. Ona şərik qoşmaq olmaz. Tək hüceyrəli canlını da, külli- aləmi də yaradan Odur. Tanrı öz yaratdıqlarını yaşatmağı isə təbiətə - Günəşə, torpağa, küləyə, suya həvalə edir. Bir də seçdiyi insanlara. Tanrının seçdiyini xalq da seçirsə, bu rəhbər adamın çiyninə daha böyük missiya düşür: idarə etmək, qorumaq, yaşatmaq.

Prezident İlham Əliyev məhz buna görə söyləyir ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun sosial rifahı dayanır. Cənab Prezident həmişə çalışır ki, ölkəmizin maddi nemətləri ədalətli bölünsün, sərvətlərimizdən hər kəsə pay çatsın. Ona görə də xüsusi proqramlar qəbul olunur, sosial müdafiə xarakterli sərəncamlar verilir. Heç şübhəsiz ki, Vətənin müdafiəsində, torpaqlarımızın işğaldan azad edilməsində canından və sağlamlığından keçən insanların ailəsinə xüsusi diqqət və qayğı göstərilməsi həm dövlətin, həm də cəmiyyətin vəzifəsi , borcu və şərəf işidir. Dövlətin gördüyü sosial müdafiə tədbirləri çoxşaxəlidir, şəhid ailələri 20 adda, müharibədə əlil olan şəxslər 14 adda təminat və sosial qayğı ilə əhatə olunublar.

Bu prosesə cəmiyyətin fəal inteqrasiyası və göstərilən dəstək tədbirlərinin sistemli, ardıcıl və məqsədyönlü olmasını təmin etmək məqsədi ilə Prezident İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli fərmanı ilə YAŞAT Fondunun yaranması həm də yeni humanist münasibətlərin və yanaşmaların formalaşmasına xidmət edəcəkdir. Məhz YAŞAT Fondu vasitəsi ilə həm ölkə vətəndaşları, həm də ölkədən kənarda yaşayan soydaşlarımız, eləcə də Azərbaycanı sevən hər kəs öz xeyriyyəçilik niyyətini çox asanlıqla və şəffaf şəkildə həyata keçirə biləcəkdir. YAŞAT Fondunun dəstəyi ilə bütün şəhid ailələrinin və qazilərimizin bir çox sağlamlıq, məişət və sosial problemləri davamlı və şəffaf şəkildə öz həllini tapacaqdır.

Prezident İlham Əliyev öz siyasətini formaca çox sadə, lakin məna yükü çox böyük olan dörd kəlmə ilə ifadə edir: Bizim siyasətimiz, bizim işimizdir!

Məhz sözlə əməl bir olanda ölkədə inkişaf olur, ədalət olur, xalqın öz sabahına inamı olur, bu inamı yaradan Liderinə etibar, etimad və məhəbbət olur.

Daha çox qayğıya ehtiyacı və haqqı olan şəhid ailələrinə , Qarabağ müharibəsində əlil olmuş şəxslərə, qaçqın və məcburi köçkünlərə, ahıl insanlara münasibətdə cənab Prezidentin davranışı onlara dövlət başçısının hörmətinin ifadəsi olduğu qədər də, cəmiyyətə bir xoş məram nümayişi, nümunə və çağırışdır.

...Xatırlayaq, Prezident İqamətgahındakı qəbulda tribunada çıxış edərkən qəhərlənən şəhid atasına Prezidentin kürsüdən qalxıb su süzüb verməsi anını...

...Xatırlayaq, Şamaxıda zəlzələ zamanı evi zərər çəkmiş ağbirçəyi ölkə başçısının bir övlad mehribanlığı ilə qucaqlayıb təskinlik verməsini...

...Xatırlayaq, Prezidentin ad gününü Taxta körpü qəsəbəsində məcburi köçkün ailəsi ilə birlikdə qeyd etməsini..

...Xatırlayaq, 24 aprel 2014- cü ildə Praqadakı "Türkiyə burada yoxdur, mən buradayam" təəssübkeşliyini...

...Xatırlayaq 4 oktyabr 2019- cu ildə Soçidə "Valday" Diskusiya Klubunda "Qarabağ Azərbaycandır və nida işarəsi!" bəyanatını...

...Xatılayaq, 11 oktyabr 2019 - cu ildə Aşqabadda və 10 fevral 2020- ci ildə Münhendə işğalçı və təcavüzkar Ermənistanın baş nazirinə verilən tarix dərsini...

...Xatırlayaq Milli Ordumuzun 44 günlük Zəfər yürüşündə Ali Baş Komandanın mübarizə əzminin simvoluna çevrilmiş "Dəmir yumruq" tezisini...

...Xatırlayaq cənab Prezidentin və hörmətli Mehriban xanım Əliyevanın işğaldan azad olunmuş torpaqlarımızı, Xudafərin kürpüsünü, Ağdam məscidini necə qürurla və məhəbbətlə ziyarət etdikləri anları...

Bu addımların hər biri humanizm, insana qaygı və fərdi qəhrəmanlıq nümunəsidir!

Bu addımların hər biri vətəndaşa hörmət, təsəlli, vətənə sevgi və xidmət mümunəsidir!

Bu addımların hər biri xarizmatik Liderin öz xalqı və Vətəni üçün fədakarlığıdır!

Bu addımların hər biri tarixin sınaqlarından çıxmış Lider - Xalq birliyini daha da möhkəmlədən, daha da mətinləşdirən addımlardır!

Məhz bu birliyin sayəsində biz, torpaqlarımızı da işğaldan azad etdik, ərazi bütöblüyümüzü bərpa etdik, tarixi yurdlarımıza dönüşü reallaşdıra bildik!

Cənab Prezidentin irəli sürdüyü "Biz birlikdə güclüyük!" şüarı isə bütün dövrlərin birlik və həmrəylik himninə çevriləcəkdir!

Hər günü gərgin keçən bu 44 günün içərisində biz Azərbaycanın növbəti uğur tarixini yazdıq. Bu tarixin isə bir qəhrəmanı var: Azərbaycan xalqı və onun yenilməz Lideri cənab İlham Əliyev! Allah qorusun!

***Musa QULİYEV,***
***Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədri, YAP Siyasi Şurasının üzvü***

# Azərbaycanın zəfər tarixini yazan qüdrətli LİDER

***"Bu gün Azərbaycanda proseslər müsbət istiqamətdə gedir, iqtisadi inkişaf tam təmin edilir və bir çox sosial layihələr icra olunur. Bu inkişafın təməlində Ulu Öndər Heydər Əliyev siyasəti dayanır. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyasının son 17 ildə Prezident İlham Əliyev tərəfindən müasir çağırışlara və yeni dövrün reallıqlarına uyğun davam etdirilməsi ölkə həyatının bütün sahələrində tərəqqinin əldə olunmasına səbəb olub.***



Həyata keçirilən ardıcıl islahatlar sayəsində ölkəmiz özünün iqtisadi müstəqilliyinin təmin olunması yolunda uğurlu addımlar atıb". Bu fikirləri "Səs" qəzetinə aciqlamasinda Yeni Azərbaycan Partiyası Zaqatala rayon təşkilatının sədri Habil Qurbanov bildirib.

Qeyd edib ki, xalqımız 2008-ci il oktyabrın 15-də, 2013-cü il oktyabrın 9-da və 2018-ci il aprelin 11-də keçirilən prezident seçkilərində də Ulu Öndər Heydər Əliyev siyasətinin layiqli davamçısına, əmin-amanlığa, tərəqqiyə və quruculuğa səs verdi: "Cənab İlham Əliyev hər bir Azərbaycan vətəndaşı üçün Prezident oldu və xalqın etimadını doğrultdu. Ötən on yeddi ildə İlham Əliyev Prezidentliyi dövründə ölkənin həyatının bütün sahələrində verdiyi vədlərin hamısını yerinə yetirmiş və sosial problemləri həll etmişdir. Əldə olunan möhtəşəm nailiyyətlər Azərbaycanı güclü və qüdrətli dövlətə çevirib. Verdiyi bütün vədlərə sadiq qalaraq Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Cənab İlham Əliyev xalqının alternativsiz lideri olduğunu öz fəaliyyəti ilə sübuta yetirib. Son 17 ildə qazanılan nailiyyətləri beynəlxalq reytinq təşkilatları, biznes qurumları da öz hesabatlarında göstərirlər. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi uğurlar Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı kimi nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir. Əlbəttə ki, bu ugurlar verilən vədlərin uğurla reallaşması nəticəsində baş verib. Ötən dövrdə uğurlu inkişaf tarixini yaşayan Azərbaycanda həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının qəbulu və qarşıya qoyulan vəzifələrin uğurlu icrası nəticəsində abadlaşan bölgələrimiz, inkişaf edən ölkəmiz Azərbaycanın dinamik inkişafının göstəriciləridir".

H.Qurbanov bildirib ki, dövlət başçısının uğurlu sosial siyasəti respublika əhalisinin rifah halının yaxşılaşdırılması, sosial cəhətdən həssas əhali qruplarına dövlət qayğısının artırılması istiqamətində kompleks tədbirlərin ildən-ilə güclənməsinə, geniş əhali kateqoriyalarını əhatə edən etibarlı sosial müdafiə sisteminin formalaşdırılmasına imkan yatmış oldu: "Dövlət başçısının dəfələrlə bəyan etdiyi kimi, ölkədə həyata keçirilən siyasətin mərkəzində, məhz Azərbaycan vətəndaşları, onların maraqları dayanır. Davamlı olaraq, islahatların həyata keçirilməsi vətəndaşların rifahının daha da yüksəldilməsinin, qayğıya ehtiyacı olan insanların sosial müdafiəsinin gücləndirilməsinin daim dövlətin diqqət mərkəzində olduğunun əyani göstəricisidir. Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu islahatlar kursu ölkəmizdə dayanıqlı inkişafının təmin olunmasına imkan yaratmaqla bərabər və demoqrafiya sahəsində müsbət meyilləri də stimullaşdırıb. Bunun real təzahürü ölkə əhalisinin sabit artım tempinin davam etməsində aydın şəkildə özünü göstərir. Əhalisinin sayı hər il sabit şəkildə artaraq, 10 milyonu ötən ölkəmizdə dayanıqlı sosial-iqtisadi tərəqqi, sosial siyasət davamlı xarakter almaqla, demoqrafik inkişafa təkan verir".

Bu gün xalqın taleyüklü məsələri dövlət başçımız tərəfindən həllini tapır, deyən rayon təşkilatının sədri son illər ölkəmizin iqtisadi qüdrətinin artmasının milli ordumuzun möhkəmlənməsinə də geniş imkan yaratdıgını vurgulayıb: "Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına səbəb oldu. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılıb. Ordumuzun yüksək döyüş hazırlıq qabiliyyəti, ən son növ döyüş texnikası və hərbi avadanlıqlar ilə təmin olunması eləcə də gənclərimizin ölkə rəhbərliyinə və ordumuza verdiyi dəstək qələbəmizi şərtləndirən amillər sırasındadır. Azərbaycan xalqı 30 ilə yaxın idi ki, işğalda olan Qarabağ torpaqlarının azad edilməsini səbirsizliklə gözləyirdi. Bu müddət ərzində istər Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə, istərsə də Ulu Öndərin siyasi varisi Cənab Prezident İlham Əliyevin 2003-cü ildən başlayaraq ardıcıl olaraq həm siyasi müstəvidə, həm də ordu quruculuğu sahəsində gördüyü işlər öz bəhrəsini verdi, addım-addım bizi qələbəyə yaxınlaşdırdı. Sentyabrın 27-də erməni təcavüzünə cavab olaraq başlanan və cəmi 44 gün davam edən Vətən müharibəsi dövründə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı böyük bir tarix yazdı. İqtidar-Xalq-Ordu birliyi öz bəhrəsini verdi. Hamı yumruq kimi birləşdi, hər kəs Qələbəyə öz töhvəsini verdi və möhtəşəm Qələbə qazanıldı. Bu qələbənin qazanılmasında şəhidlik zirvəsinə yüksələn əsgər və zabitlərimiz əsl qəhrəmanlıq göstərdilər. Allah bütün şəhidlərimizə rəhmət eləsin, yaralılara şəfa versin. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev əsl sərkərdə kimi hərəkət edərək xalqı və ordunu ruhlandıraraq, öz ardınca apardı, öz xalqına güvənərək demək olar ki, dünyanın böyük güc mərkəzləri ilə siyasi meydanda təkbətək döyüşdü. Bütün dünyaya sübut etdi ki, Azərbaycanın mübarizəsi haqq mübarizəsidir və Qarabağ torpağı Azərbaycanın əzəli torpaqlarıdır". "Hərb meydanında igidlik göstərən, vətən torpağını düşməndən qanı, canı bahasına azad edən Azərbaycan bayrağını uca tutan vətən oğullarının bu qələbənin qazanılmasında rolu danılmazdır. Bu gün Azərbaycanda Vətən Müharibəsi ilə bağlı orden və medallar və fəxri ad təsis edilib və dövlət başçısının Sərəncamları ilə mübariz vətən oğullarına təqdim olunur. Bütün bunlar dövlətimizin mərd, mübariz, vətənpərvər, igid övladlarına diqqətinin, qayğısının təzahürüdür", deyə rayon təşkilat sədri bildirib.

***Zümrüd BAYRAMOVA***

# YAP Səbail rayon təşkilatında videokonfrans keçirilib



YAP Səbail rayon təşkilatında, Vətən müharibəsində Azərbaycan xalqının möhtəşəm tarixi qələbəsinin memarı, görkəmli dövlət xadimi, möhtərəm Prezident və müzəffər Ali Baş Komandan İlham Əliyevin şərəfli tarixi ənənələrə söykənən siyasi fəaliyyətinə həsr olunan "Azərbaycan tarixinə Şərəf, Ləyaqət, Qürur səhifəsi yazan Ali Baş Komandan - İlham Əliyev" mövzusunda videokonfrans keçirilib. SİA-nın verdiyi məlumata görə, Səbail rayon ictimaiyyəti nümayəndələrinin, ziyalıların, partiya veteranlarının və gənc fəalların iştirak etdiyi videokonfransda YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev, Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov, sədr müavini Mehman İsmayılov, Aparat rəhbəri Zəfər Bayramov, İdarə Heyətinin üzvləri - "Səs" media qrupunun rəhbəri Bəhruz Quliyev, 132-134 saylı Təhsil Kompleksinin direktoru Sara Xanlarova, Adilə xanım Abasova, Rayon Şurasının üzvləri - 6 saylı məktəb-liseyin direktoru Gülşən Orucova, 239 saylı orta məktəbin direktoru Sədaqət Əzimova, 50 saylı orta məktəbin direktoru Sədaqət Həsənova, Azərbaycan Respblikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dekanı Elçin Əhmədov, "Təhsil tədqiqatçıları" (Azərbaycan Respublikasının Təhsil İnstitutu) ərazi ilk partiya təşkilatının sədri Piralı Əliyev, Qadınlar Şurasının sədri Təranə Kərimova, Gənclər Birliyinin sədri Riyad Rüstəmli, fəal gənclər Bəyim Nəbiyeva və Fuad Heydərli çıxış etdilər. Natiqlər, adını müasir Azərbaycan tarixinə qızıl hərflərlə həkk edən Prezident İlham Əliyevin müstəqil daxili və xarici siyasətinin mühüm tərkib elementlərini, o cümlədən Vətən müharibəsində həm döyüş meydanında, həm də diplomatik masada əzəli düşmənimiz üzərində qazanılmış inamlı, parlaq qələbəmizi təmin edən güclü, müasir ordu quruculuğunun və dinamik, dayanıqlı iqtisadi inkişafın Azərbaycan modelinin müxtəlif aspektlərini geniş təhlil etdilər.

YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev partiya təşkilatının çoxminli üzvləri adından Prezident, Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevi 24 dekabr doğum günü münasibətilə təbrik etdi və ən səmimi arzularını bildirərək ölkə başçısına möhkəm cansağlığı, sağlam uzun ömür, Azərbaycanın gələcək inkişafı naminə şərəfli fəaliyyətində yeni-yeni uğurlar, ailəsinə xoşbəxtlik, səadət arzuladı. Azərbaycan xalqının 30 ilə yaxındır ki, həsrətində olduğu Dağlıq Qarabağ və ətrafındakı yeddi rayonun düşmən tapdağından azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün, dövlət sərhədlərinin, suverenliyinin tam bərpa edilməsi münasibətilə müzəffər Ali Baş Komandanımız İlham Əliyev başda olmaqla Azərbaycan Ordusunu, bütün xalqımızı təbrik edən Ş.Hacıyev diqqətə çatdırdı ki, Azərbaycan xalqı möhtərəm Prezidentimizlə sözün əsl mənasında qürur duyur, fəxr edir. Bütün Türk dünyası, eləcə də Azərbaycan xalqına dost-qardaş olan dövlətlərin vətəndaşları, sülhsevər dünya ictimaiyyəti Azərbaycanın Vətən müharibəsində əldə etdiyi möhtəşəm qələbə sevincini bölüşür. Qeyd olundu ki, 44 günlük Vətən müharibəsi dövründə cənab İlham Əliyev döyüş meydanında, siyasi arenada, beynəlxalq informasiya mübarizəsində misilsiz uğurlara imza atdı, işğalçı Ermənistanın uydurmalarını, erməni miflərini dağıtdı, Azərbaycan xalqını məğlubiyyət, fəlakət, müsibət nisgilindən xilas etdi, Türk millətinin başını ucaltdı, Azərbaycan xalqının qəhrəmanlığını, məğlubedilməzliyini, qələbə əzmini, döyüşkənliyini və işğalla heç bir zaman barışmadığını bütün dünyaya nümayiş etdirdi. İlham Əliyevin memarı olduğu bu tarixi qələbə nəticəsində Azərbaycan, düşmən tapdağı altında olan torpaqlarını işğaldan azad etməklə yanaşı, müstəqillik tarixinin yeni, möhtəşəm, şərəfli tarixini yazdı. Ş.Hacıyev vurğuladı ki, bu qələbə Prezident İlham Əliyevin rəhbəliyi ilə Azərbaycanın ötən 17 il ərzində əldə etdiyi misilsiz iqtisadi, siyasi, diplomatik uğurların, gərgin əməyin nəticəsidir. İlham Əliyevin Azərbaycan xalqının milli maraqlarına xidmət edən fəaliyyəti Ulu Öndər Heydər Əliyevin siyasi kursunun uğurlu davamıdır. İlham Əliyev Azərbaycan üçün mümkünsüz görünənləri reallaşdırdı. "Ölkəmizin hazırki iqtisadi, hərbi qüdrəti, müsbət beynəlxalq imici və dünya ictimaiyyətinin diplomatik dəstəyi olmasaydı Azərbaycan təkbaşına bu münaqişəni həll edə bilməzdi. Lakin Prezident İlham Əliyevin görkəmli dövlət xadimi, əsl Liderə xas şəxsi keyfiyyətləri, cəsarəti, intellekti, uzaqgörənliyi, situasiyanı düzgün qiymətləndirmə, adekvat, optimal qərar qəbul etmə qabiliyyəti və Xalq-İqtidar-Ordu birliyinə arxalanması nəticəsində Azərbaycan bu gün regionun Lider ölkəsinə, yeni geo-siyasi və geo-iqtisadi reallıqlar yaradan güc mərkəzinə, güclü iqtisadiyyata malik qüdrətli, demokratik, müstəqil, dünyəvi dövlətə çevrilib. İlham Əliyev yeni dövrdə Türk dünyasının yeni Lideridir. Müzəffər Ali Baş Komandanımız 44 günlük Vətən müharibəsi dövründə dünyanın nüfuzlu telekanallarına, aparıcı informasiya agentliklərinə verdiyi çoxsaylı müsahibələrində ölkəmizi, xalqımızı bütün dünyaya yenidən təqdim etdi. Azərbaycan, İlham Əliyevin rəhbərliyi ilə döyüş meydanında və diplomatik masada əldə etdiyi misilsiz nailiyyətlər nəticəsində uzun illərdən sonra məğrur, qalib dövlətə çevrildi. İndi isə Azərbaycan üçün tamamilə yeni, möhtəşəm inkişaf dövrü başlayır. Xalqımız, illərdir düşmənin viran qoyduğu torpaqlarımızı İlham Əliyevin rəhbərliyi altında qısa müddətdə yenidən quracaq, o bölgələrimizə məxsus zəngin tarixi, mədəni, dini irsimizi bərpa edəcək, Qarabağı və ətraf rayonları cənnət məkana, beynəlxalq əhəmiyyətli turizm mərkəzinə çevirəcək. Azərbaycan dünyanın ən inkişaf etmiş, əhalinin yüksək rifahının təmin olunduğu ölkələrdən birinə çevriləcək. Bu şərəfli vəzifələrin icrasında sözsüz ki, Yeni Azərbaycan Partiyasının üzvlərinin mühüm töhfələri olacaq. Yeni Azərbaycan Partiyasının hər bir üzvü ölkə başçısı İlham Əliyevin müsəlləh əsgəridir. Bizim yolumuz Ulu Öndər Heydər Əliyev yolu, siyasətimiz İlham Əliyev siyasətidir".

Konfrans iştirakçıları Prezident, Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevə "Xalqın Qəhrəmanı" Fəxri adının verilməsi təklifini yekdilliklə dəstəklədilər.

***Ceyhun Rasimoğlu***

# YAP Xəzər rayon təşkilatında onlayn elmi-praktiki konfrans keçirilib



Yeni Azərbaycan Partiyası Xəzər rayon təşkilatında onlayn elmi-praktiki konfrans keçirilib. SİA-nın verdiyi məlumata görə, onlayn elmi-praktiki konfransda Azərbaycan tarixinə Şərəf, Ləyaqət, Qürur səhifəsi yazan Ali Baş Komandan, Prezident İlham Əliyevin siyasi fəaliyyətinin, dövlətçiliyimizin müasir uğurları və inkişaf prespektivləri, 8 noyabr Zəfər günü ilə bağlı mövzular müzakirə edilib. Tədbirdə Xəzər rayon İcra Hakimiyyətinin başçısı Elşən Salahov, Milli Məclisin deputatları Rauf Əliyev və Soltan Məmmədov, YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov və gənc fəallar iştirak edib.

Tədbiri giriş nitqi ilə açan YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov "Prezident İlham Əliyevin fəaliyyəti: Ulu Öndər Heydər Əliyevin siyasi kursunun uğurlu davamı" mövzusunda çıxış edib. Xəzər rayon İcra Hakimiyyətinin başçısı Elşən Salahov Prezident İlham Əliyevin şərəfli tarixi ənənələrə söykənən siyasi fəaliyyəti, güclü və müasir ordu quruculuğu, Vətən Müharibəsində böyük zəfər qazanılması və ölkəmizin ərazi bütovlüyünün təmin edilməsi ilə bağlı öz fikirlərini bildirib.

Daha sonra Milli Məclisin deputatları Rauf Əliyev və Soltan Məmmədov Azərbaycanın dövlət maraqlarının yüksək səviyyədə qorunması, vətəndaşların sosial problemlərinin həllinin priorotetliyi və şanlı tarix yazmış görkəmli dövlət xadimi Prezident İlham Əliyevin fəaliyyəti haqqında geniş nitq ilə çıxış ediblər. Sonda cənab Prezident, Ali Baş Komandan İlham Əliyevə doğum günü münasibətilə Xəzər rayon ictimaiyyəti adından təbrik məktubunun göndərilməsi qərara alınıb.

# Azərbaycan tarixi ədaləti təkbaşına bərpa etdi!

## Vətən müharibəsi Azərbaycan Prezidentinin, xalqının və Ordusunun qələbəsidir!



***Tarixi torpaqlarımızı 30 ildir işğal altında saxlayan Ermənistanın hərbi təxribatları müntəzəm xarakter alanda Azərbaycan cavab vermək məcburiyyətində qaldı. Şanlı aprel döyüşlərindən sonra dərs almayan Ermənistan bu ilin iyul və avqust aylarında yenidən hərbi təxribatlara əl atdı, sentyabrın 27-də baş verənlər isə səbr kasasını daşıran son damla oldu. Vətən müharibəsi başlamışdı və bütün Azərbaycan bir neçə dəqiqənin içində cəbhəyə kökləndi. Hamının qəlbi Vətən naminə döyündü.***

Xalq öz Prezidentinin ətrafında sıx birləşməklə bütün dünyaya sübut etdi ki, Qarabağ millətimizin milli ləyaqət rəmzidi və Azərbaycan xalqı Qarabağ arzusundan bir addım da geri çəkilməyib. Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi millət quruculuğu prosesi ona gətirib çıxardı ki, Prezident-Ordu-Xalq birliyi qalib gəldi, düşmən 30 ildir işğal altında saxladığı torpaqlarımızdan qovuldu.

Vətən müharibəsində Azərbaycan xalqı da, dövləti də Qarabağın işğaldan azad olunması ilə bağlı var-qüvvəsini ortaya qoydu. İllərdi qurulan güclü ordu, yetişən vətənpərvər nəsil düşmən çəpərinə çevrildi. Əsgər və zabitlərimiz döyüş tapşırıqlarını şərəflə yerinə yetirdi. Strateji yüksəklikləri götürərək daha əlverişli mövqelərə sahib oldular. Otuz il ərzində Ermənistan rəhbərliyi "güclü ordusu" haqqında uydurmalar ortalığa atanda, "yenilməz Ermənistan ordusu" barədə miflər yaradanda Azərbaycanda dünya standartlarına uyğun ordu yaradılıb və bu ordunun gücü döyüş meydanında göründü. Baxmayaraq ki, biz 30 il səbrlə gözləmişdik. Danışıqlar prosesinə sadiq qalmışdıq. Bütün bunlar münaqişənin dinc yolla, müharibəsiz həllinə hesablanmışdı və Azərbaycan hər dəfə status-kvonun dəyişdirilməsinin vacibliyini vurğulayanda məqsəd münaqişənin fəal hərbi əməliyyatlar mərhələsinə keçməsinin qarşısını almaq idi. Ancaq ermənilərin illərlə qoruyub saxladığı həmin status-kvo bir neçə günün içində darmadağın oldu. Təmas xətti yarıldı və rəşadətli Azərbaycan ordusu torpaqlarımızı düşmən tapdağından xilas etdi.

Prezident İlham Əliyev müharibənin gedişində dəfələrlə bəyan etdi ki, "dünyada heç bir qüvvə bizi haqq yolumuzdan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq, biz qalib gələrik, biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik!". Bu əminlik 44 günlük müharibədən Azərbaycanın qalib ayrılmasını şərtləndirdi. Ermənistan bütün hərbi resurslarını itirdi, döyüşdə uduzduğunu görən düşmən isə xilas olmaq üçün bütün vasitələrə əl atdı. Dinc əhalini atəşə tutdu, gecə vaxtı yatan insanların başına ballistik bombalar yağdırdı. Azərbaycan isə onların cavabını döyüş meydanında verdi. Heç vaxt mülki əhaliyə əl qaldırmadı. 1992-ci ildə Xocalı soyqırımını törədəndə də düşmənin məqsədi dinc əhalini qırmaqla Azərbaycan xalqının ruhunu sındırmaq, onu psixoloji böhrana salmaq idi. Bu dəfə də həmin metoddan istifadə etdi. Amma Azərbaycan xalqı öz haqlı davasında axıra qədər getdi.

Prezident İlham Əliyev hər dəfə yeni kənd və şəhərlərimizin işğaldan azad olunması xəbərini xalqa çatdıranda bu, insanlarda qələbəyə böyük ümid yaradırdı. Hətta azad olunmuş ərazilərdə bütün infrastrukturun dağıdılması belə xalqımızın qələbə əzminə təsir etmədi, indi onlar səbirsizliklə doğma torpağa qayıdacaqları günü gözləyirlər. Prezident İlham Əliyev həmişə deyirdi ki, o, nəyi nə vaxt edəcəyini yaxşı bilir. Bu gün döyüş meydanında baş verənlər Azərbaycan Prezidentinin uzaqgörənliyini, onun hadisələrə fərqli yanaşma bacarığını ortaya qoydu. Bu, həm də xalqın öz liderinə sonsuz inamının, ona etimadının təntənəsi idi.

Vətən müharibəsi regional və qlobal miqyasda Azərbaycana dəstəyi də nümayiş etdirdi. Biz kimin kim olduğunu gördük və çoxları nəhayət, anladılar ki, Azərbaycanın ərazi bütövlüyü başqa ölkələrin ərazi bütövlüyü qədər əhəmiyyətli və önəmlidir. Azərbaycan Ermənistandan fərqli olaraq heç kimdən kömək istəmədi. O, yalnız öz gücünə arxalandı, xalqın marağı dövlətin iradəsi ilə birləşib düşmənə sarsıdıcı zərbə vurdu. Bu da ondan irəli gəldi ki, Prezident İlham Əliyevin yürütdüyü xarici siyasətin əsas özəlliyi onun Azərbaycanın milli maraqlarını ehtiva etməsidir. Onun hakimiyyətdə olduğu 17 il ərzində ölkəmizin xarici siyasət kursunda yalnız bu prinsiplər üstünlük təşkil edib: Azərbaycanın müstəqilliyini möhkəmləndirmək, müstəqil siyasətə sadiq olmaq, heç vaxt heç kimdən asılı olmamaq, heç kimin qarşısında baş əyməmək, öz qürurumuzu qoruyub saxlamaq və ölkənin ərazi bütövlüyünü bərpa etmək. Və bu da nəticə: Azərbaycan 30 ildir məruz qaldığı təcavüzü aradan qaldırdı, döyüş meydanında olduğu kimi, diplomatiya arenasında da qalib gəldi.

Prezident İlham Əliyevin Azərbaycanın milli mənafelərinin qorunmasına xidmət edən xarici siyasət kursunda əsas müddəalardan biri də ərazi bütövlüyü prinsipinin prioritet elan edilməsi idi. Vətən müharibəsinin gedişi və düşmən üzərində qazanılan parlaq qələbə nəhayət ki, məsələyə son nöqtəni qoydu. Amma bu nəticənin əldə olunması xeyli zəhmət bahasına başa gəlmişdir. Azərbaycan Prezidenti ölkənin xarici siyasətini xoş niyyət üzərində qurub. Biz bütün ölkələrlə qarşılıqlı hörmət və bir-birinin işinə qarışmamaq prinsiplərinə əsaslanan münasibətlər formalaşdırmışıq. Bu, dünya miqyasında, beynəlxalq aləmdə qəbul edilən prinsipdir və Azərbaycan onun ən gözəl örnəyidir. Təsadüfi deyil ki, indi Azərbaycan dünyada etibarlı tərəfdaş kimi qəbul olunur. Azərbaycan İslam Əməkdaşlığı Təşkilatının fəal üzvüdür, eyni zamanda, Avropa İttifaqı ilə yaxın münasibətləri var. Avropa İttifaqının 9 üzvü ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında sənədlər qəbul edilib. Yəni bu, o deməkdir ki, bizim xarici siyasət gündəliyimiz əməkdaşlığın, tərəfdaşlığın gücləndirilməsi və qarşılıqlı fayda üzərində qurulub. Bir sözlə, Azərbaycanın yürütdüyü xarici siyasət kursu bizə çoxlu dostlar qazandırıb. Azərbaycan BMT Təhlükəsizlik Şurasının mandatı əsasında təsis edilmiş beynəlxalq sülhməramlı əməliyyatlara qoşulub. Ölkəmiz Rusiya-NATO, Rusiya-ABŞ yüksək hərbi rəhbərliyinin mütəmadi olaraq keçirilən görüşlərinə ev sahibliyi edib. Bu görüşlər üçün dünyadakı 200 ölkə arasında məhz Azərbaycanın seçilməsi təbii ki, Prezident İlham Əliyevin müstəqil xarici siyasət kursuna olan hörmətin təzahürüdür.

Azərbaycan beynəlxalq miqyasda söz sahibinə çevrilməsin də onun iqtisadi gücü də əhəmiyyətli rol oynayıb. Uğurlu enerji diplomatiyası Azərbaycanı Avropanın strateji tərəfdaşına çevirib. Ancaq Vətən müharibəsinin gedişində Ermənistan bu tərəfdaşlığın təhlükəli subyektinə çevrilmişdi. Onlar Ermənistanla dövlət sərhədimizdə bir neçə kilometr məsafədə yerləşən strateji enerji infrastrukturu üzərində nəzarəti ələ keçirmək istəyirdi. Bununla onlar həm də Avropa istehlakçılarını şantaj edirdi. Lakin onlara ciddi cavab verildi, Azərbaycan onların geriyə çəkilməsinə nail oldu. Bir məqama da toxunaq ki, Prezident İlham Əliyev ölkənin iqtisadi gücünü diplomatik müstəviyə yaxşı transformasiya edib, ölkəmizin ətrafında kifayət qədər beynəlxalq maraq toplayıb. Belə olmasaydı biz 2011-ci ildə 155 ölkənin səsini alaraq BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməzdik. Hələ o vaxtlar bu hadisə ölkənin beynəlxalq miqyasda tanıdılması istiqamətində illərdir həyata keçirilən gərgin əməyin bəhrəsi kimi görünürdü. Bu, bizə şər-böhtan atan qüvvələrə ən yaxşı cavab idi. Çünki Azərbaycan illərdir dünyada müasir, müstəqil və inkişafda olan ölkə kimi tanınır və bunu son illərdə Bakının ev sahibliyi etdiyi müxtəlif beynəlxalq tədbirlərdən də görmək olur. Türk Şurasının dövlət başçılarının zirvə görüşü, Mədəniyyətlərarası Dialoq Forumu, Bakı Beynəlxalq Humanitar Forumu, Dünya Dini Liderlərinin ikinci Bakı sammiti, Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının sammiti... Yeri gəlmişkən qeyd edək ki, BMT-dən sonra bu, ən böyük beynəlxalq təsisatdır. BMT-nin rəhbəri yoxdur, amma Qoşulmama Hərəkatının lideri var, bu da Azərbaycandır.

Bu liderliyin bəhrəsini biz elə Vətən müharibəsinin gedişində də gördük. Minsk qrupunun həmsədr ölkələri BMT Təhlükəsizlik Şurasının iclasında Azərbaycanın maraqlarının əksinə münaqişə ilə bağlı yeni sənədin qəbul edilməsinə çalışanda maraqlı vəziyyət yarandı. Qoşulmama Hərəkatında təmsil olunan ölkələr bu sənədin qəbuluna imkan vermədilər. Onlar haqqın, ədalətin yanında durdular. Bu hadisə Azərbaycanın öz haqlı davası ətrafında ədalətli komanda formalaşdırdığını göstərdi. Baxmayaraq ki, hələ uzun illər öncə bir çox beynəlxalq təşkilatlar Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın ədalətli mövqeyini dəstəkləyən qərar və qətnamələr qəbul etmişdi. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsindən başqa BMT Baş Assambleyasının, Qoşulmama Hərəkatının, İslam Əməkdaşlıq Təşkilatının, Avropa Parlamentinin qətnamələri birmənalı şəkildə Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyıb. Bu, münaqişə ilə bağlı beynəlxalq hüquqi çərçivəni müəyyən etdi, Azərbaycanın mövqelərini möhkəmləndirdi. İndi təsəvvür edin ki, Azərbaycan bu addımları vaxtında atmasaydı bu gün münaqişənin ətrafında cərəyan edən proseslər bizə böyük problemlər yarada bilərdi. Amma qəbul olunan beynəlxalq qərar və qətnamələrin çoxu uzun illər idi ki, kağız üzərində qalmışdı. Ermənistanın indi düşdüyü vəziyyətin əsas səbəblərindən biri onların təcavüzkar siyasətidirsə, digər mühüm səbəb beynəlxalq birliyin vaxtında təcavüzkarın cəzalandırılmaması ilə bağlı göstərdiyi anlaşılmaz mövqedir. Bu isə özlüyündə suallar doğurur: niyə indiyə qədər bu məsələ həll olunmadı? Birləşmiş Millətlər Təşkilatının qərarları niyə icra edilmədi? Niyə təcavüzkar dövlətə qarşı sanksiyalar tətbiq olunmadı? Halbuki Prezident İlham Əliyev dəfələrlə beynəlxalq kürsülərdən, BMT Baş Assambleyasının iclaslarında bəyan etmişdi ki, Ermənistana qarşı sanksiyalar tətbiq olunmalıdır. Bütün bunlar baş verməyəndə Azərbaycan özü təkbaşına 30 ildir icra olunmayan həmin qətnamələri döyüş meydanında icra etdi. Bu, həm də beynəlxalq hüquqda ədalətin bərpası, haqqın qalib gəlməsi idi.

Bu günlərdə qardaş Türkiyənin Azərbaycana dəstəyini xüsusi vurğulamaq lazımdır. Vətən müharibəsi başlayan kimi Türkiyə dərhal öz mövqeyini ortaya qoydu. Qardaş ölkənin bütün rəsmi şəxsləri bəyan etdi ki, Azərbaycanın ərazi bütövlüyü təmin olunmalı və bütün işğal edilən torpaqlar öz sahibinə qaytarılmalıdır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dəfələrlə Prezident İlham Əliyevlə təmaslarında Azərbaycanın haqlı davasını dəstəklədi və qətiyyətlə bildirdi ki, sona qədər Azərbaycanın yanındadır. Ona görə də Türkiyənin siyasi və mənəvi dəstəyi bu Qələbənin qazanılmasında çox böyük rol oynadı. Çünki Prezident Rəcəb Tayyib Ərdoğanın ilk saatlardan dediyi "Azərbaycan tək deyil, Türkiyə onun yanındadır" sözləri bir çoxlarının bu münaqişəyə müdaxilə cəhdlərini alt-üst etdi.

Beləliklə, 44 gün davam edən Vətən müharibəsində Azərbaycan təkcə döyüş meydanında deyil, həm də diplomatiya sahəsində qalib gəldi. Bu qələbə istisnasız olaraq Prezident İlham Əliyevin diplomatiyasının ən böyük uğurudur. Çünki ölkəmizin illərlə topladığı beynəlxalq nüfuz haqlı davamıza qüvvət verdi, onu daha güclü etdi. Bu çətin günlər qardaşlığın, dostluğun dəyərini anlatdı. Biz bir daha şahidi olduq ki, tarix heç vaxt öz funksiyasını dəyişmir, dostlar düşmənə, düşmənlər dosta çevrilmir. Qalib gələn ədalət və ölməyən həqiqət olur.

Bu qələbə bir xalq kimi bizim gücümüzü göstərdi, Azərbaycanın bir dövlət kimi potensialını nümayiş etdirdi. Bunu düşmən də, onun havadarları da gördü. Gördülər ki, ötən 30 ildə Azərbaycan öz haqlı davasından bir addım da geri çəkilməyib və Azərbaycan Prezidenti döyüş meydanında tarixi ədaləti bərpa etməkdə qərarlıdır. Bu, işğalçını sülhə məcbur etmək, düşmənə layiq olduğu yeri göstərmək üçün əsil ölüm-qalım mübarizəsi idi. Biz həm də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin arzusunun, onun öz davamçısına vəsiyyətinin tarixi reallığa çevrilməsini gördük. İlham Əliyev ata vəsiyyətini yerinə yetirməklə Azərbaycan tarixinə şanlı səhifə yazdı. Doğma xalqı qarşısında bütün zamanların ən dəyərli missiyasını uğurla həyata keçirən Böyük Sərkərdənin başçılıq etdiyi müzəffər ordu 1992-ci il mayın 8-də əlimizdən zorla alınan Şuşanı da 2020-ci ilin noyabrın 8-də doğma nəfəslərlə isindirdi.

Artıq həyatımızda yeni dövr başlayır. Bu dövrün özəllikləri olacaq. Biz Azərbaycanın beynəlxalq münasibətlərdə yürütdüyü siyasətin yeni konturlarını görəcəyik. İkitərəfli və çoxtərəfli əlaqələrdə yeni əməkdaşlıq parametrləri müşahidə olunacaq. Ən önəmli məqam isə ondan ibarətdir ki, dünya bu müharibənin gedişində Azərbaycanı yenidən kəşf etdi, ölkəmiz haqqında, onun malik olduğu güc barədə beynəlxalq birlikdə dəqiq təsəvvür formalaşdı. Onlar gördülər ki, müstəqillik tarixi dövründə inanılmaz dərəcədə güclənən Azərbaycanla heç bir halda təhdid dilində danışmaq olmaz. Çünki onun xalqın maraqlarını bütün dəyərlərdən üstün tutan, ölkənin bütün potensialını Vətən naminə səfərbər edən Lideri var və Xalq-Lider vəhdəti Azərbaycanın xoşbəxt gələcəyinin qarantıdır.

***Məmməd Əliyev, fəlsəfə elmləri doktoru, professor***
***Şəhla Tahirqızı, filologiya üzrə fəlsəfə doktoru, dosent***

*2020-ci ilin son ayının son günlərini yaşayırıq. Bu ilimiz çətin və keşməkeşli olsa da, sonda xalqımıza böyük sevinc bəxş edən Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyev cənabları 30 illik ən böyük ağrılı dərdimiz - Qarabağımızın bizə qaytarılması oldu. 44 gün davam edən İkinci Qarabağ Müharibəsinin qələbəsi Azərbaycan Prezidentin, Ali Baş Komandan İlham Əliyevin milli maraqlarımıza söykənən müstəqil siyasətinin, beynəlxalq arenada yüksək nüfuzunun, Güclü Ordumuzun, rəşadətli əsgərlərimizin və xalqın birliyinin məntiqi nəticəsidir. Bir sözlə, Böyük Azərbaycan zərrə-zərrə işğal edilsə də, ağır döyüşlərdə büdrəsə də, heç vaxt yıxılmamışdır. Dəfələrlə aramsız müharibələrə, talanlara, işğallara məruz qalan ana yurd Prezident cənab İlham Əliyevin sözləri ilə desək, heç vaxt indiki qədər qüdrətli olmamışdır.*

# Azərbaycan tarixinə qələbələr yazan Güclü Azərbaycan Ordusu - Son 17 il



Dövlət başçımız İlham Əliyev cənabları çıxışlarında da dönə-dönə vurğulayır ki, bu Qələbə Azərbaycan Ordusunun gücünü göstərdi: "Bu Qələbə bizim xalqımıza yaraşır, igid oğullarımıza yaraşır, dövlətimizə yaraşır və bu Qələbə gücümüzü göstərdi. Onu göstərdi ki, heç vaxt Azərbaycan bu vəziyyətlə barışmayacaq. Mən 17 il ərzində ölkə Prezidenti və Ali Baş Komandan kimi dəfələrlə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı öz sözlərimi demişdim. Demişdim, biz heç vaxt imkan verə bilmərik ki, tarixi Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın. Demişdim ki, heç vaxt Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu olmayıb və olmayacaq. Demişdim ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Demişdim ki, sülh yolu ilə mümkün olmasa, hərbi yolla bunu bərpa edəcəyik. Mənim çıxışlarım hər yerdə var, dərc edilib. Bu sözləri demişəm və buna əməl etmişəm. Ərazi bütövlüyümüzü bərpa etmişik, işğalçıları işğal edilmiş torpaqlardan qovmuşuq, ikinci erməni dövlətinin yaradılmasına imkan verməmişik, heç bir status haqqında söhbət gedə bilməz".

Bəli, bu gün 30 illiyk həsrətə 44 gün ərzində son qoymasının əsas amili- XALQ-İQTİDAR-ORDU birliyinin, Ali Baş Komandanımız İlham Əliyev cənablarının son 17 illik prezidentlik fəaliyyəti müddətində ordumuza daima diqqət və qayğısının, dəmir yumruğunun nəticəsidir. Dövlətimizin başçısının dediyi kimi: "Paşinyan heç kimdir. Koçaryan və Sarkisyan, Azərbaycan xalqının cəlladları, Xocalı cəlladları, sizi biz məğlub etmişik, sizin ordunuzu məhv etmişik. Əgər kapitulyasiya aktı Ermənistan tərəfindən imzalanmasaydı, özləri bilirlər nə ilə qurtaracaqdı bu müharibə. Bax, budur bizim gücümüz, budur bizim birliyimiz. Dəmir yumruq sizin başınızı əzdi və bundan sonra artıq heç kim bizimlə ultimatum dili ilə danışmayacaq. O cümlədən rəzil vəziyyətdə olan Paşinyan, bizə yeddi şərt irəli sürdü, başına vurduq bütün o şərtləri. Nə oldu o şərtlər? Mənim bir şərtim var idi, rədd ol, çıx get və o şərtə əməl edildi".

Çünki dövlət başçımız İlham Əliyev cənablarının bütün çıxışlarında bildirib ki, biz haqq yolunda, öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq və bu haqq vuruşunda bizim xilaskar əsgərlərimiz şücaət göstərirlər: "Mən bir daha demək istəyirəm ki, Azərbaycan öz doğma torpağında vuruşur və siz haqq yolunda yaralanmısınız. Bizim əsgərlərimiz xilaskar əsgərlərdir. Erməni əsgərləri işğalçı əsgərlərdir. Fərq bundadır. Biz öz torpağımızda vuruşuruq, erməni əsgəri başqa dövlətin torpağında - Azərbaycan torpağında ölür".

Göründüyü kimi, bu gün Müzəffər ordumuz Qarabağ cəbhəsində tarix yazır, işğal altında olan torpaqlarımız işğaldan azad edilir və edilməkdədir. Dövlət başçımız İlham Əliyev 17 illik Prezidentlik fəaliyyətində ancaq və ancaq düşmən tapdağında olan torpaqlarımızın azad edilməsi ilə bağlı yüksək tribunalarda, verdiyi müsahibələrində qətiyyətlə çıxışları, söylədiyi hər söz, hər kəlməsi, Güclü Ordumuzun, Rəşadətli əsgərlərimizin və nəhayət, dövlət başçımızla xalqımızın bir olmağımız, 30 illik həsrətimizə son qoyulmağımız olub. Çünki Azərbaycan Ordusunun potensialı göz önündədir. Ulu Öndərin başlatdığı ordu quruculuğunu son 17 ildə yeni keyfiyyət mərhələsinə yüksəldən Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılmasını uğurla təmin edib. Bunun nəticəsidir ki, inkişaf etmiş bəzi ölkələrin hərbi mütəxəssisləri də artıq Azərbaycanın təcrübəsini öyrənir. Bu gün isə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimiz regionun və dünyanın ən güclü 50 ordusu sırasına yüksəlib. Məhz bu inkişafın nəticəsidir ki, xalqımızın və Ali Baş Komandanın rəhbərliyi ilə bu gün yeni bir tarix yazıldı.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının dediyi kimi: "Azərbaycan indi o dövlət deyilki, onun maraqlarını kimsə kənara qoya bilər". Bəli, bu gün Azərbacan dövləti nə o dövlətdir, ordusu da nə o ordu deyil. Məhz 44 gün ərzində mənfur düşmənin əksər texnikası məhv edildi, canlı qüvvəsinə ciddi zərbə vuruldu, ordusu darmadağın edildi, Azərbaycan əsgərləri onları iti qovan kimi qovdu: "Biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq. Biz bu gün tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır. İndi biz göstərdik kim-kimdir. İti qovan kimi qovuruq onları! Azərbaycan əsgəri onları iti qovan kimi qovur! İşğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılır! Onların səngərlərində Azərbaycan əsgəri dayanır! Onların postları bizim əlimizdədir! Onların tankları biz sürürük! Onların digər silahlı texnikaları bizim əlimizdədir, yük maşınları bizim əlimizdədir! Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!".

Bəli, uğur dalınca uğur, zəfər dalınca zəfər bizi müşayiət etdi, Azərbaycan ordusu şanlı tarix yazdı. Vətən müharibəsində Azərbaycan Ordusunun böyük rəşadətini göstərdi. Şanlı tarixin yazılmasının əsas memarı - Ali Baş Komandan, QALİB SƏRKƏRDƏ İlham Əliyev cənablarının son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyasıdır. Azərbaycan xalqı bundan sonra da yumruq kimi Azərbaycan Prezidentinin ətrafında birləşəcək. Qarabağ Azərbaycandır!

***MƏHƏBBƏT İBRAHİMOVA,***
***YAP Nərimanov rayon təşkilatının Qadınlar Şurasının sədri***

*Turizm və xidmət sferası investisiya baxımından çox cəlbedicidir. Bu sahə ölkənin infrastrukturunun inkişaf etdirilməsində və valyuta vəsaitlərinin axını baxımından əhəmiyyətlidir. Digər tərəfdən, turizmin inkişafının iqtisadi imkanları təşkilati-iqtisadi proseslərin inkişafı üçün münbit şəraitin yaradılması deməkdir.*

# Qarabağın turizm potensialı: Reallıqlar və perspektivlər



Belə bir şərait isə, öz növbəsində bu gəlirli sahənin infrastrukturunun genişləndirilməsi, bu sahə ilə bağlı yaradılan münbit şərait xarici turistlərin respublikamıza səfərlərinin artım tempində də gətirib çıxarır. Ölkəmizdə daxili turizm də ildən-ilə canlanmaqdadır. Yalnız ötən il bu rəqəmin 500 minlə 700 min arasında olması müsbət tendensiyalardan xəbər verir. 44 günlük müharibədə müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında rəşadətli Ordumzuzun işğal altındakı torpaqlarımızı düşməndən azad etməsi xalqımızda böyük ruh yüksəkliyi yaratdığı kimi, ölkəmizin iqtisadi inkişafı üçün də yeni perspektivlər açdı. Bu mənada, azad edilmiş ərazilərdə turzimin inkişaf etdirlməsi daha cəlbedici görünür. Tam əminliklə demək olar ki, dövlətimiz tərəfindən Qarabağın təhlükəsiz zonaya çevrilməsi istiqamətində həyata keçirdiyi ciddi tədbirlər bu ərazidə turizm infrastukturunun förmalaşmasına və dinamik inkişafına səbəb olacaq. Bununla da Qarabağın turizm potensialı barədə dünyaya çatdırılan yeni və etibarlı reallıqlar ölkəmizə yeni investisiyaların cəlb olunması yollarını açacaq.

Qarabağın əlverişli iqtisadi-coğrafi mövqeyi, çox zəngin ehtiyyatlara, nadir təbii-iqlim xüsusiyyətlərə malik oması, münbit torpağı, zəngin flora və faunası ölkə turizm sənayesinin inkişafı üçün açılan yeni üfüqlər deməkdir. Həmin ərazilərə sərmayə yatırılması bu sahənin iş adamlarına geniş imkanlar yaradacaq və bu yatırımların nətice etibarı ilə ölkə büdcəsinə kifayət qədər gəlir gətirəcəyi reallıqdır və bu, həyati gerçəklikdir. İşğaldan azad edilmiş torpaqlarımızın mineral və termal su mənbələri ilə zəngin olması da bölgənin turizm imkanlarının artırılmasında mühüm faktordur. Qarabağ torpağı, həm də xalqımızın böyük mədəni irsinin mühüm daşıyıcısı hesab olunur. Bu bölgəmiz istedadlı şairləri, yazıçıları, musiqiçiləri ilə də məşhurdur. Qarabağın Azərbaycan musiqisinin beşiyi olması özünü çoxdan təsdiq etmiş həqiqətdir.

Dəniz səviyyəsindən 1400 metrə hündürlükdə yerləşən Azərbaycan mədəniyyətinin incisi Şuşanın tarixi abidələri, özünəməxsus arxitekturası yeni turizm marşrutlarının yaradılmasına imkan verir. Mənəvi dünyamızın tərcümanı olan bu şəhər mülayim iqlim şəraitinə, mineral suları isə müalicəvi xüsusiyyətlərə malikdir. Bunlar da turizm üçün çox yararlı istiqamətlərdir. Sahə mütəxəssisləri bu fikirdədirlər ki, yaxın gələcəkdə Qarabağ bölgəsinin turizm infrastrukturunun yaradılması və inkişafı üçün keçmiş ənənələr də əhəmiyyətli rol oynaya bilər. Hələ postsovet məkanında insanlar Qarabağ bölgəsinə davamlı axın edirdilər. Azıx mağarası (doğrudur, erməni vandalları bu dünya miqyaslı tarixi abidəni də dağıdıblar) bəşəriyyət üçün unikal abidədir. Bu mağara dünyada 7 möcüzədən biri hesab olunur. Bizim Qarabağ bölgəsində UNESCO-nun irs siyahısına düşəcək abidələrimiz var. Orada quruculuq-bərpa işlərinin keçirilməsi müəyyən zaman alsa da, Qarabağın turizm potensialından istifadə Azərbaycana iqtisadi baxımdan böyük qazanc gətirəcək.

Qarabağın işğaldan əvvəlki dövrdə fəaliyyət göstərmiş mədəni və səhiyyə obyektlərini yenidən dirçəltmək də bu mənada önəmlidir. Vaxtilə Şuşa və Ağdam rayonlarında yerləşən məşhur "Şuşa sanatoriyası", "Gülablı sanatoriyası", Şuşanın istirahət evləri, məktəblilərin yay tətilində dincəlməsini təmin edən düşərgələr və bu kimi turizm məskənləri ayrıca seçilirdi. Bu turizm və müalicə obyektləri Azərbaycan xalqının milli-tarixi dəyərlərini dünyaya tanıtmaqla yanaşı dövlət büdcəsinə külli miqdarda gəlir gətirirdi. Ölkəmizin hər yerində olduğu kimi burada da Böyük Zəfərimizin imkanlarıdan istifadə edərək bu ərazilərdə möhtəşəm turizm obyektləri inşa etmək olar. Yaxın perspektivdə bu istiqamətdə böyük irəliləyişə nail omaq tamamilə mümkündür. Bununla da Qarabağda turizmin inkişafı özü ilə bərabər otelçilik sektorunu da irəli aparmağa imkanlar yaradacaq.

Mütəxəssislər hesab edirlər ki, Qarabağda turizmin inkişafı üçün bir sıra kadrların əməyindən istifadə edilməlidir. Dövlət, özəl sektor, alimlərin birgə səyi sayəsində Dağlıq Qarabağın sıfırdan turizm potensialı işlənib hazırlanmalıdır. Onlar Qarabağın həm təbii, həm də antropogen turizm resurslarını nəzərdən keçirməlidirlər. Turizmçilər bu fikrdədirlər ki, təbiətinin zənginliyinə görə Qarabağın gələcəyi daha çox ekoturizmə bağlı olacaq. Bundan məharətlə istifadə etsək, Qarabağı dünyada mühüm ekoloji turizm məkanlarından birinə çevirəcəyik. Dövlətimizin bu istiqmaətdə xüsusi proqram da qəbul etməsi gözləniləndir.

Qarabağda turzimin inkişafı, həm də bu istiqamətdə yeni marşrutların açılması, yol infrastrukturunun genişləndirilməsi deməkdir. Xudafərin körpüsü və başqa tarixi abidələrə də gələcəkdə turist marşrutu ola bilər. Mədəni-tarixi incilərimizin əksəriyyəti dağıdılsa da, onların bərpasından sonra həmin istiqamətlərə turların təşkili mümkündür. Sahə mütəxəssisləri ümid edirlər ki, qonşu İran İslam Respublikası ilə bu sahədə əməkdaşlıq olacaq. Məlumdur ki, Türk birliyinin müasir İpək yolu layihəsi mövcuddur. Azərbaycana daxil olmaq üçün Qars-İğdır-Naxçıvan marşrutu, İran ərazisindən dəmir yolu xəttinin çəkilməsi mümkün görünür. Bundan yalnız ölkəmizin vətəndaşının yox, bütün mədəni sivilizasiyanın qazanacağı şəksizdir. İşğaldan azad etdiyimiz ərazilərin çoxu dağlıq ərazi olduğundan, bu bölgəyə nəzər yetirsək, həmin ərazilərdə dağçılıq və alpinizm turizminin inkişafı üçün təbii şəraitin olduğunu görərik.

Bununla bərabər, Qarabağın gəzməli-görməli yerlərinə gəzintilər təşkil etmək, həmin ərazilərdə aktiv və ekstremal turizmi inkişaf etdirmək də turizmin inkişafına töhfə verə bilər. Qarabağda turizmin müxtəlif növlərinin yaradılması və inkişafı üçün unikal imkanlar olduğunu beynəlxalq sərgilərdə nümayiş etdirsək, onun reklamını dünya səviyyəsində təşkil edə bilsək, həmin sahənin bölgədə daha da irəli getməsinə böyük təkan vermiş olarıq. Məsələn, təkcə Zəngilanda çoxlu sayda termal su mənbəyinin mövcudluğu, həm də Qarabağda müxtəlif istiqamətli turizm xidmətlərinin yaradılması üçün münbit şərait deməkdir. Təqdirəlayiq haldır ki, Qarabağın turizm potensialı ilə bağlı dövlət əhəmiyyətli tədbirlərin coğrafiyası sürətlə genişlənir. 2020-ci il 23-24 noyabr tarixində Azərbaycan Turizm Bürosu (ATB) Dubayda keçirilən "Gulf Travel Show" sərgisində iştirak edib. Bu Beynəlxalq sərgidə Qarabağ və onun turizm potensialı tanıdılıb. Pandemiyası səbəbilə virtual formada təşkil olunan sərgiyə Yaxın Şərq, Afrika, Asiya, Avropa və Amerikadan olan 1000-dən çox iştirakçı qatılıb. Sərgi çərçivəsində ATB əməkdaşları 35-dən çox görüş keçiriblər. Təəssüflər olsun ki, erməni vandalları torpaqlarımızın işğalı dövründə Qarabağın dağlıq hissəsində və ətraf rayonların əksər yerlərində maddi-mədəniyyət abidələrimizi, tarixi yerlərimizi dağıdıblar, bölgənin ekosistemin ə böyük ziyan vuvraraq infrastrukturu məhv ediblər. Bununla da öz yırtıcı, barbar xislətini nümayiş etdiriblər. Amma zaman öz axarındadır. Xalqımızın fitrətində olan qurub-yaratmaq eşqi yenidən bu yerlərə həyat verəcək, əzəli torpaqlarımızı dirçəldəcək. Yaxın gələcəkdə Qarabağ Azərbaycanımızın əsas turizm bölgəsinə çevriləcək. Bu da ölkəmizin istər mədəni, istərsə iqtisadi həyatında əhəmiyyətli rol oynayacaq.

***Könül Məmmədova,***
***YAP Şamaxı Rayon Təşkilatının Şura üzvü, "Tərəqqi" medallı***

# Erməni terrorunun qısa tarixi: faşizm və genosid siyasətinin nəticələri

***Elmi araşdırmalar beynəlxalq terrorizmin tərkib hissəsi olan erməni terrorunun tarixinin 100 ildən çox olduğunu göstərir. Belə ki, “Böyük Ermənistan” dövlətinin yaradılmasını qarşısına məqsəd qoymuş radikal erməni təşkilatları bu planı həyata keçirmək üçün siyasi terror aksiyalarından geniş istifadə edilməsini proqram sənədlərində başlıca vasitə kimi nəzərdə tutmuşlar. Dünya tarixinə bəziləri siyasi partiya və ya ictimai təşkilat adı altında maskalanmış 15-dən artıq erməni terror təşkilatı məlumdur ki, onların öldürdüyü azərbaycanlıların sayı 1 milyona yaxındır. Bu yazıda həmin təşkilatlar haqqında qısa məlumat verəcək, erməni terrorunun beynəlxalq himayədarlarını məqsədləri və əməllərini göstərməyə çalışacağıq.***

### Erməni terror təşkilatlarından bəziləri haqda qısa məlumat

“Armenakan” partiyası: 1885-ci ildə yaradılıb. Türkiyənin Van, Muş, Bitlis, Trabzon bölgələrində və İstanbulda silahlı toqquşmalar və terror aktları törədən bu partiya İran və Rusiyada yaşayan ermənilərlə əməkdaşlıqda olub.

**“Hnçak” partiyası:** 1887-ci ildə Cenevrədə yaradılıb. Təşkilatın əsas məqsədi Türkiyənin Şərqi Anadolu bölgəsini, “Rusiya Ermənistanı” və “İran Ermənistanı” adlandırdıqları əraziləri birləşdirməklə “Böyük Ermənistan” dövləti yaratmaqdır. Partiyanın proqramının 4-cü bəndində göstərilir; “Qarşıya qoyulmuş məqsədə çatmaq üçün təbliğat, təşviqat, terrorizm və dağıdıcı təşkilat yaradılması metodu seçilməlidir”.

**“Daşnaksütyun”- erməni federativ inqilab partiyası:** 1890-cı ildə Tiflisdə yaradılıb. Əsas qayəsi Azərbaycanın Qarabağ, Naxçıvan və Türkiyənin Şərqi Anadolu torpaqlarında “Böyük Ermənistan” dövləti qurmaqdır. 1892-ci ildə Tiflisdə ilk qurultayını keçirən “Daşnaksütyun” türklərə qarşı sui-qəsdlərin təşkil olunması barədə qərar çıxarmışdır. Məhz bu qurultaydan sonra “Daşnaksütyun” təşkilatı “türkü, kürdü hər yerdə, hər bir şəraitdə öldür, sözündən dönənləri, erməni xainlərini öldür, intiqam al!” əmrini vermişdir. “Daşnaksütyun” partiyası tərəfindən yaradılan bir sıra terror qrupları mövcuddur və fəaliyyətlərini davam etdirirlər.

**“Erməni gizli azadlıq ordusu” (ASOA):** 1975-ci ildə Beyrutda yaradılıb. Mənzil-qərargahı Dəməşqdə yerləşir. Fələstin bazalarında hazırlıq keçən 1000-dən artıq döyüşçüsü vardır. Fəaliyyətinin ilk 6 ilində təşkilat dünyanın müxtəlif ölkəsində 19 türk diplomatının ölümünə səbəb olan terror aktları keçirib.

**“Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu” (ASALA):** 1975-ci ildə yaradılan təşkilatın qərargahı Beyrutda, təlim-məşq bazaları isə Suriyada yerləşir. Məqsədi Şərqi Türkiyə, Şimali İran və Azərbaycanın Naxçıvan və Qarabağ əraziləri üzərində “Böyük Ermənistan” qurmaqdır. Əsasən, Türkiyə və Azərbaycan vətəndaşlarına qarşı terror aktları həyata keçirir. Təşkilatın lideri A.Akopyan 01.08.80-ci ildə “Nyu-York Tayms” qəzetinə verdiyi müsahibədə bildirmişdir: “Düşmənimiz türk rejimi, NATO və bizimlə əməkdaşlıq etməyən ermənilərdir”.

**“Geqaron”:** 2001-ci ilin fevralında ASALA tərəfindən yaradılmışdır. Məqsəd- Cənubi Qafqaz və Orta Asiya ərazilərinə türk mənşəli siyasi lider, diplomat və biznesmenlərə qarşı terror aktlarının keçirilməsidir.

“Erməni azadlıq hərəkatı” (AOD): 1991-ci ildə Fransada yaradılıb. Terror fəaliyyətini ASALA ilə sıx əlaqədə həyata keçirir.

**“Erməni azadlıq cəbhəsi”:** 1979-cu ildə yaradılan bu terrror təşkilatı ASALA-nın tərkib hissəsi sayılır. Türkiyə və Azərbaycan əleyhinə terrorçular hazırlayır.

**“Orli qrupu”:** 1981-ci ildə Fransada yaşayan erməni gəncləri tərəfindən yaradılıb. Təşkilat 1987-ci ilədək dünyanın müxtəlif aeroportlarında 10-dan artıq terror aktı həyata keçirib.

**“Erməni soyqırım ədalət komandosları”:** 1972-ci ildə Vyanada “Daşnaksütyun” partiyasının qurultayı zamanı yaradılıb. “Erməni soyqırımı ədalət komandosları”nın məqsədi erməni əsilli gənc Livan vətəndaşlarını hərbi birləşmələrdə cəmləşdirmək, türklər və azərbaycanlılara qarşı qanlı terror aksiyaları təşkil etməkdir.

**“Gənc ermənilər ittifaqı”:** Diplomatların oğurlanması ilə məşğul olan bu təşkilat 1990-cı ildə Fransada yaradılıb.

**“İsveçrə qrupu”:** Avropanın bir çox ölkəsində fəaliyyət göstərən bu təşkilat Fransa, İtaliya və Yunanıstanda keçirilmiş 4 terror aktının məsuliyyətini öz üzərinə götürmüşdür.

**“İntiharçılar eskadronu”:** 1981-ci ildə Parisdə yaradılmışdır. Həmin ildə bu təşkilat Türkiyənin Fransadakı baş konsulluğunu zəbt edilməsində iştirak etmiş, nəticədə qrupun 4 nümayəndəsi, həmçinin keçmiş rəhbəri Yan Kaşkayan həbs edilmişdir.

**“Apostol”:** 2001-ci il aprel ayının 29-da əsasən Ermənistan, Suriya və Livan vətəndaşlarından ibarət olan Ermənistan Müdafiə Birliyi tərəfindən yaradılmışdır. Məqsəd- Türkiyə və Azərbaycan ərazilərində terror aktlarının keçirilməsidir.

### Ermənilərin terroru əcnəbilərin gözü ilə

“Ermənlərin xalq qəhrəmanlığı barəsində bir şey eşidən olubmu? Onların azadlıq uğrundakı mübarizələrinin adları harada həkk edilib? Heç yerde! Çünki ermənilərin “qəhrəmanları” həmişə öz xalqlarının xilaskarlarından daha çox cəlladı olublar”. /Rus diplomatı general Mayevskinin xatirələri. “Ermənilərin törətdiyi kütləvi qırğınlar” kitabından./

Kəndlərə aparılan yollara müsəlman kəndlilərinin süngüyə keçirilmiş meyitləri, kəsilmiş bədən hissələri və dağılıb tökülmüş daxili orqanları səpələnmişdi... Əsasən qadınlar və uşaqlar! Hakimlər və sahibkarlar qətlləri təşkil etmiş, erməni ordusu onu yerinə yetirmişdir. Dərin quyular qazılmış və köməksiz insanlar heyvan kimi kəsilərək bir-birinin ardınca quyulara atılmışdır. Qətllər üçün məsuliyyət daşıyan ermənilər bir evə səksən nəfər müsəlman doldurur, sonra isə onların başlarını kəsirdi. /Polkovnik-leytenant Qryaznovun 1915-ci ildə Ərzincandakı qırğınlar haqqında raportundan./

11-12-mart gecələrində erməni cəlladları Ərzincan ətrafındakı ərazilərdə müsəlmanları süngülər və baltalarla qətlə yetirdilər. Bu vəhşilər öz qurbanlarını əksərən öz məşum planları məqsədi ilə qazılmış xəndəklərə atırdılar. Mənim yavərim 200 belə xəndək saymış və cinayətlərin üstünü açmışdı. /Rusiya ordusunun generalı L.Odişelidzenin 1915-ci il tarixli məlumatından./

“Ali məktəbdən tutmuş ibtidai məktəblərə qədər bütün erməni məktəbləri Avropa paytaxtlarında ifrat dərəcəyə çatdırılmış erməni təbliğatçılarının qızğın fəaliyyət meydanına çevrilmişdi. Vətənpərvərlik mədhiyyə və mahnıları, kəskin satira və təmsillər müəllimlər mühitindən yeniyetmələrin odlu qəlbinə düşürdü, onlarda müsəlmanların “mənfur hakimiyyətinə” qarşı qəzəb, kin-kudrət hissini heç kimə məlum olmayan gələcəyin fantastik illüziyalarının bütöv bir silsiləsini alovlandırırdı. Beləliklə, ən qısa bir vaxt (3-4 il) ərzində onların yaratdığı illüziyanın müdafiəsi üçün qanlı fədakarlığa hazır olan qudurğan, inadkar gənclər yarandı...” /Rus diplomatı general Mayevskinin xatirələri. “Ermənilərin törətdiyi kütləvi qırğınlar” kitabından./

“Biz Xocalı müdafiəçilərinin, yüzlərlə dinc sakinlərinin-qadınların, uşaqların, qocaların eybəcər hala salınmış cəsədlərini gözlərimizlə gördük... Ermənilər bizim vertolyotu da atəşə tutduqlarına görə çəkilişi başa çatdıra bilmədik. Amma elə yüksəklikdən gördüklərimiz də törədilən vəhşilikləri təsəvvürə gətirmək üçün kifayət edirdi. Bu, tükürpədici mənzərə idi. 5-6-yaşlı uşaqları, qundaqdakı körpələri, hamilə qadınları vəhşiliklə öldürən ermənilər cəlladlıqda heç kəslə müqayisəyə gəlməzlər”. /Xocalı qırğınının şahidi fransız jurnalisti Jan İv Yunet./

...Əsirlər var. Lakin artıq yaşamağa yararlı deyillər. Qışda onları səhərlər ayaqyalın qarın-buzun üzərinə çıxarırlar. Təpələrindən soyuq su tökür, başlarında şüşə sındırır, sonra təzədən kameraya salırlar. Əsl işgəncələr isə bundan sonra başlanır. Barmaqlarını qapının arasına qoyub qırır, cığırdıqca rezin dəyənəklə döyürlər. Çoxu əzablara tab gətirməyərək dəli olub ölür. Biz növbəti kəndi zəbt edəndə bir erməninin diri uşağı götürüb iki böldüyünü görmüşəm. Sonra bədənin bir hissəsi ilə anasının sifətinə, başına o qədər döydü ki, övladının al qanına bulaşmış qadın dəli olub gülməyə başladı. /”Moskovskiy komsomolets” qəzeti. 29. 01. 1994. “Neft sindromu” məqaləsindən./

Ara bir az sakitləşən kimi Şuşanı yenə gördüm. Şəhərin türk məhəlləsində daş-kəsək yığınlarından başqa bir şey qalmamışdı. Bütün evlər yandırılmış, onların sahibləri isə öldürülmüşdü. Eyni hal Xankəndidəki türk məhəlləsinin də başına gətirilmişdi... Bakıda ermənilər ingilislərin yardımı ilə bu böyük neft şəhərini ələ keçirdilər və şəhərin türk əhalisindən 25 min nəfərini qırdılar”. /Ohanes Apresyanın xatirələrindən. Leonard Ramsden Hartvill. “İnsanlar belədir. 1918-1922-ci illər Azərbaycan hadisələri bir ermənının xatirələrində”. ABŞ, İndianapolis, “Bobbs Meril kompani” nəşriyyatı, 1928./

*Davamı olacaq*

***Elçin Bayramlı***







*Yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

25 dekabr

QARABAĞ AZƏRBAYCANDIR!

## Tomas Tuhel PSJ-dən qovuldu!



Fransanın PSJ futbol klubu, almaniyalı baş məşqçisi Tomas Tuheli istefaya göndərib. Bu barədə "Bild" nəşri məlumat yayıb. Ötən gün paytaxt klubununun idman direktoru Leonardonun qərarı ilə 47 yaşlı mütəxəssisin vəzifəsindən kənarlaşdırıldığı bildirilib.

Almaniyalı mütəxəssisin Paris təmsilçisi ilə müqaviləsinin müddəti 2021-ci ilin yayında başa çatmalı idi. Qeyd edək ki, PSJ Liqa 1-in turnir cədvəlində 35 xalla 3-cü pillədə qərarlaşıb.

## Ronaldo Milad tətilini Dubayda keçirəcək



"Yuventus"un hücumçusu Kriştiano Ronaldo Milad tətilində Turin şəhərindən ayrılacaq. Qol.az "La Gazzetta dello Sport"a istinadən xəbər verir ki, 35 yaşlı oyunçu ailəsi ilə birlikdə Dubaya gedəcək. Koronavirus pandemiyası səbəbindən bu ölkədə ciddi məhdudiyyət yoxdur. Ronaldodan başqa "Yuventus"un daha bir neçə futbolçusu da İtaliyanı tərk edəcək.

Turinə qayıtdıqdan sonra futbolçular iki həftə özünü təcrid vəziyyətində keçirməli və komandadan ayrı məşq etməli olacaqlar. Qeyd edək ki, "Yuventus" İtaliya çempionatında 24 xalla turnir cədvəlinin 6-cı pilləsində qərarlaşıb.

## BMT açıqladı: Mərcan rifləri əsrin sonunda yox ola bilər



Ölkələr istixana emissiyalarını azaltmasa, mərcan rifləri bu əsrin sonunadək tamamilə yox ola bilər. Birləşmiş Millətlər Təşkilatının (BMT) xəbərlər xidmətinin məlumatında deyilir ki, bu barədə BMT-nin Ətraf Mühit Proqramı (UNEP) üzrə ekspertləri xəbərdarlıq edib. UNEP-in nümayəndəsi Letisiya Carvalho bildirib ki, tədbir görülməsə, mərcan rifləri tezliklə yox olacaq. O, riflərin solması və məhv olması prosesinin gözləniləndən daha sürətlə baş verdiyini vurğulayıb.

Mərcan rifləri - kolonial mərcan poliplərindən və bəzi yosun növlərindən əmələ gələn geoloji strukturlardır. Dəniz ekosistemlərinin həyatında çox vacib rol oynayan mərcan rifləri çoxsaylı dəniz canlılarının, o cümlədən molyuskların və krevetkaların məskunlaşdığı mühitdir. Onlar azot və karbonu udaraq suyu təmizləməklə bir növ dalğaqıran rolunu oynayır. Bundan əlavə, yeni dalğaların sürətini və ölçüsünü azaldaraq sahil xəttini dağılmadan qoruyur.

Eyni zamanda, mərcanların məhv olması təkcə dəniz ekosistemləri üçün deyil, həm də sahilyanı bölgələrdə yaşayan və dəniz məhsulları ilə dolanan milyonlarla insan üçün fəlakətli nəticələrə səbəb ola bilər.

UNEP ekspertləri bildirir ki, suyun temperaturu artdıqda mərcan polipləri onların toxumalarında məskunlaşan yosunları sıxışdırır. Bu, mərcanların "solma" prosesi adlanır. Mütəxəssislərin fikrincə, bundan sonra da onlar hələ özlərinə gələ biləcəklər. Amma, onlar solmaqda davam edərsə, mərcanlar məhv olacaq. Əgər dünya okeanında suyun temperaturunun aşağı düşməsinə imkan verəcək tədbirlər görülsə, bu prosesi geriyə çəkmək olar. UNEP ekspertləri qeyd edirlər ki, ilk növbədə atmosferə istixana qazı tullantılarını əhəmiyyətli dərəcədə azaltmaq lazımdır.

## Gəncədə silsilə oğurluq edən şəxs saxlanılıb

***Gəncə Şəhər Baş Polis İdarəsinin cinayət axtarış idarəsinin və Nizami Rayon Polis İdarəsinin əməkdaşlarının birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində şəhər ərazisində silsilə oğurluq hadisələri törədən şəxs saxlanılıb.***

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Gəncə regional qrupundan AZƏRTAC-a bildiriblər ki, aparılan araşdırmalarla şəhər sakini, əvvəllər məhkum olunmuş 41 yaşlı Anar Qurbanovun aprel və dekabr aylarında şəhər ərazisindəki 4 fərdi evdən, 5 mağazadan və 1 köşkdən ümumi dəyəri 12 min 469 manat olan müxtəlif növ məişət əşyaları, tütün və qida məmulatları, geyim əşyaları, xalça, mobil telefon və kompüter avadanlığı oğurladığı müəyyənləşdirilib. A.Qurbanov saxlanılaraq maddi sübutlarla birlikdə istintaqa təhvil verilib. Hazırda saxlanılan şəxsin digər analoji cinayətlərdə iştirakı və törətdiyi cinayət hadisələrində digər şəxslərlə cinayət əlaqələrinin olub-olmaması araşdırılır. Faktlarla bağlı Gəncə Şəhər Baş Polis İdarəsinin istintaq və təhqiqat idarəsində cinayət işi başlanıb, araşdırmalar davam etdirilir.



## Xəbərdarlıq: Rəngli maskalar allergik reaksiyalara səbəb olur



Yeni növ koronavirus (COVID-19) infeksiyasından qorunmağın əsas qaydalarından biri maska taxmaqdır. Mövcud vəziyyətlə əlaqədar daha çox parça və tibbi maskalara üstünlük verilir. Lakin mütəxəssislər parça maska taxmağı məsləhət görmürlər, çünki ondan mütəmadi istifadə zamanı virus materialın üzərində qalır. AZƏRTAC xəbər verir ki, həkim-terapevt Mətanət Cəfərova bununla bağlı deyib: "Parçada məsamələrin ölçüsü böyük olduğuna görə virus və bakteriyalar çox asanlıqla keçə bilir. Parça maskaların qalın və nazikliyindən asılı olmayaraq hətta onu iki-üç qat edib taxanda da viruslardan qorumur. Buna görə də həmin maskalardan istifadə etməmək məsləhətdir. Parça maskaları bir neçə dəfə yuyaraq istifadə etmək də tamamilə yanlışdır".

Rəngli maskalar isə dəri ilə təmas zamanı allergik reaksiyalara səbəb ola bilər. Ona görə də həkimlər tibbi maskadan istifadəni daha məqsədəuyğun hesab edirlər. Mərkəzi Gömrük Hospitalının həkim-pediatrı Nazilə Hüseynova deyib: "Cərrahi tibbi maskalarda xüsusi dənəciklər var və həmin dənəciklər virusların nəfəs borusuna keçməsinə imkan vermirlər. Parça maskalarda isə elə dənəciklər yoxdur. Ona görə də dönə-dönə qeyd edirik ki, cərrahi tibbi maskalardan istifadə edilsin, çünki koronavirusdan qorunmaq üçün onların faizi daha üstündür".

Sağlam insanların N95 maskasından istifadə etməsi də yanlışdır. Həmin maskaların ciddi fəsadlar yaratmaq ehtimalı var: "N95 maskalarının istifadəsi xüsusən xəstə ilə yaxın təmasda olanlar üçün optimal sayılır. Başqa halda gün ərzində N95 maskalarından istifadə etmək məsləhət deyil, çünki bu zaman nəfəs almaq çox çətindir və yarım saatdan sonra onun içərisində olan karbon-dioksidin miqdarı artmış olur və bu, ciddi problemlər yaradır". Tibbi maskaların istifadə müddəti 2-3 saatdır. Birdəfəlik maskalardan təkrarən istifadə edilməsi yolverilməzdir, nəmli olduğu halda da yenisi ilə əvəz edilməlidir.

## Çağatay Ulusoy 5 milyonluq villa alacaq

Zekeriyaköydə yerləşən villa üçün 16 min lirə kirayə ödəməkdən bezən məşhur akytor Çağatay Ulusoy ev almaq qərarına gəlib. Aktyor yaxın dostu Kıvanç Tatlıtuğla qonşu olacaq. O, dostunun yaşadığı Kemerburqaz bölgəsində ağacdan inşa edilən villa almaq qərarına gəlib.

## UEFA bütün zamanların reytinqini açıqladı

UEFA Avrokuboklarda bütün zamanların (1955-2020) yeni reytinq siyahısını açıqlayıb. Qol.az qurumun saytına istinadən xəbər verir ki, 526 klubun yer aldığı siyahıya Azərbaycan təmsilçilərindən 7-si daxil olub.

Bunlardan ən yüksək pillədə "Qarabağ" qərarlaşıb. Ağdam təmsilçisi 46 xalla 78-ci pillədə qərarlaşıb. "Neftçi" 15 xalla 171-ci, fəaliyyətini dayandıran "Bakı" klubu isə 6 xalla 271-ci sıradadır. "Keşlə" 5 xalla 297-ci, "Şəmkir" 2 xalla 398-ci, "Kəpəz" isə 2 xalla 399-cudur. Bir xalı olan "Xəzər Lənkəran" 426-cı pillədə yer alıb. Qeyd edək ki, siyahıya "Real" (607 xal) başçılıq edir. "Bavariya" (495 xal) 2-ci, "Barselona" (459 xal) 3-cüdür.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600